# Universitetlərdə dərslərin vaxtı 80 dəqiqə ola bilər



**Azərbaycanda ali təhsil müəssisələrində dərslərin vaxtı 80 dəqiqə edilə bilər.**

Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Nicat Məmmədli bildirib ki, nazirlik bununla bağlı təklif verib.

N.Məmmədli vurğulayıb ki, dərslərin fasiləsiz 80 dəqiqə və ya fasilələrlə 45 dəqiqə olmasını universitetlər özləri müəyyən edir.

Lakin N.Məmmədli vurğulayıb ki, sinifdən çıxmaların və təmasların sayının azaldılması məqsədilə Nazirlik dərslərin 80 dəqiqə olmasını tövsiyə edir.



# İğdırdan Azərbaycana yol çəkiləcək

**İğdırdan Azərbaycana yol çəkiləcək. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-da jurnalistlərə açıqlamasında deyib.**

"Bura dəmir yol xətləri də daxildir. Bu yolun çəkilməsi çox önəmli bir addım olacaq" - deyə, R.T.Ərdoğan bildirib.



# Bu il 1731 nəfər daxil olduğu ali məktəbdə oxumaqdan imtina edib

**Ali təhsilin bakalavriat səviyyəsinə qəbul olmuş abituriyentlərdən 44 111 nəfər daxil olduqları təhsil müəssisələrində qeydiyyatdan keçib.**

Bu barədə Təhsil Nazirliyindən APA-nın sorğusuna cavab olaraq bildirilib.

Qeyd edək ki, ixtisas seçiminin nəticələrinə əsasən, ali təhsil müəssisələrinə 44 861 nəfər, boş qalan plan yerlərinə müsabiqə nəticəsində isə 981 nəfər qəbul olunub. Beləliklə, ümumilikdə 45 842 abituriyent ali təhsil müəssisələrinə qəbul edilib. 1731 nəfər isə daxil olduğu ali məktəbdə qeydiyyatdan keçməyib.

*Qeyd edək ki, müəyyən olunmuş müddətdə qeydiyyatdan keçməmək abituriyentin müvafiq ixtisasa yerləşdirilmədən imtina etməsi kimi qiymətləndirilir və onun qəbul haqqında əmri ali məktəbə göndərilmir.*


❒ № 173 (5455), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 24 sentyabr 2021-ci il (cümə)




## Nuland Azərbaycana təşəkkür edib

ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Bayramovla görüşdən yazdı

**Amerika Birləşmiş Ştatlarının dövlət katibinin siyasi məsələlər üzrə müavini Viktoriya Nuland "Twitter" hesabında Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla yaxşı görüş keçirdiyini yazıb.**

Amerika Birləşmiş Ştatlarının dövlət katibinin siyasi məsələlər üzrə müavini Viktoriya Nuland "Twitter" hesabında Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşünə dair məlumat paylaşıb. Nuland Əfqanıstandan təxliyə səylərinə verdiyi dəstəyə görə Azərbaycana təşəkkür edib.

"BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla yaxşı görüş keçirdim. Həbs olunanların azad edilməsi, minalardan təmizləmə və siyasi barışıq kimi bölgədə sülhün və sabitliyin təşviqinə dair addımlarla Minsk Qrupu həmsədrlərinin mexanizmi vasitəsilə də daxil olmaqla irəliləyiş gözləyirik", - deyə Nuland yazıb.

## "İranın Azərbaycanla sərhəddə təliminin vaxtı və yeri deyildi"

Türkiyənin İran Araşdırmaları Mərkəzinin direktoru narazılığını bildirib



"Keçirdiyimiz görüşlərdə bu məsələ çox danışıldı. Azərbaycan xalqı təbii olaraq bu suala cavab tapmaq istəyir ki, qonşumuz, tarixdaşımız, mədəniyyətdaşımız İran niyə Azərbaycana qarşı belə davranır?"

(səh.2)

# Ərdoğan Putinlə təkbətək müzakirə aparacaq

## Soçidə önəmli qərarlar qəbul olunacaq



## Türkiyə Prezidenti: "Paşinyandan müsbət mesajlar alırıq"

**"Bizim beşlik və ya altılıq platforması adlandırdığımız əməkdaşlıq variantı var idi. Hazırda bununla bağlı Ermənistanın Baş naziri Nikol Paşinyandan müsbət mesajlar alırıq. Bu müsbət mesajlarla bərabər bu məsələdə bəzi addımlar da atacağıq".**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-a səfəri çərçivəsində türkiyəli jurnalistlərə müsahibəsində deyib.

"Bölgədə sülhün yaradılması məsələsini önəmli bir nöqtəyə qədər inkişaf etdirmək fürsəti qazanmış olacağıq. Ayın sonunda cənab Vladimir Putinlə keçirəcəyim görüşdə bunlar da müzakirə edilən məsələlər arasında yer alacaq. Bununla da, Türkiyə-Rusiya əlaqələrində daha güclü və daha fərqli dönəmə qədəm qoymuş olacağıq", - Ərdoğan qeyd edib.

Türkiyə Prezidenti daha sonra deyib:

"Qismət olarsa, sentyabrın 29-da cənab Vladimir Putinlə Soçidə keçirəcəyim ikitərəfli görüş həqiqətən də böyük önəm daşıyır".

(səh.2)



## Sentyabrın 27-də Azərbaycanda Anım Günü qeyd olunacaq

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2 dekabr 2020-ci il Sərəncamına əsasən Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-i Azərbaycanda Anım Günü kimi qeyd ediləcək.

(səh.2)

## Medianın İnkişafı Agentliyində məişət zorakılığı ilə bağlı müzakirə aparılıb



Dünən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanda məişət zorakılığına məruz qalan şəxslərin təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi üçün dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin imkanlarının gücləndirilməsi" adlı Tvinninq layihəsi çərçivəsində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində görüş keçirilib.

(səh.2)

## Vəfat edənlərin sayı 24 nəfər olub

Azərbaycanda 1 178 nəfər koronavirusa yoluxub

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 1 178 yeni yoluxma faktı qeydə alınıb, 2 322 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 24 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 477 587 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 444 053 nəfər müalicə olunaraq sağalıb, 6 394 nəfər vəfat edib, aktiv xəstə sayı 27 140 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 12 331, ötən müddət ərzində isə ümumilikdə 4 790 724 test aparılıb.

# Şeyxin Amuliyə cavabı gecikmişdi?



**Tural İrfan:**
*"Diplomatiyada zaman ən önəmli faktordur. Gecikmiş cavab cavab deyil"*

**Sərdar Cəlaloğlu:**
*"Şeyxülislamın cavabı daha çox siyasi bəyanatdır. Gecikmiş də olsa, hər halda cavab verilməsi düzgün ddım idi"*

(səh.4)

## Ciddi irəliləyiş yoxdur

Jurnalistin vəziyyəti ağır olaraq qalır



**"Tanınmış jurnalist Elnur Əşrəfoğlunun 4 gündür ECMO dəstəyi davam edir".**

Bu sözləri "Şərq"ə açıqlamasında İdman Araşdırmalar Mərkəzinin sədri və Sportnet.az saytının baş redaktoru Elşən Məmmədov deyib. O vurğulayıb ki, jurnalistin vəziyyəti ağır olaraq qalmaqdadır: "Təəssüf ki, onun səhhətində ciddi irəliləyiş yoxdur. Onun vəziyyəti stabil ağırdır".

*Qeyd edək ki, Elnur Əşrəfoğlu sentyabrın əvvəllərində koronavirusa yoluxub. Əvvəlcə ev şəraitində müalicə alan jurnalist daha sonra "Yeni Klinika"ya köçürülüb.*

**Aynurə**

## Vergi cərimələrinin bir hissəsinin YAŞAT Fonduna köçürülməsi təklif olunur

**Vergi orqanları tərəfindən tətbiq edilən sanksiyalardan və cərimələrdən İqtisadiyyat Nazirliyinin hesabına daxil olan vəsaitin bir hissəsi YAŞAT Fonduna köçürülməsi təklif olunur.**

Bu, Milli Məclisin plenar sessiyasının ilk plenar iclasında müzakirəyə çıxarılacaq "Vergi Məcəlləsi"nə təklif edilən dəyişiklikdə əksini tapıb.

Dəyişiklik vergi orqanları tərəfindən tətbiq edilən sanksiyalardan və cərimələrdən İqtisadiyyat Nazirliyinin hesabına daxil olan vəsaitin bir hissəsinin dövlət və ictimai əhəmiyyətli məqsədlərlə əlaqədar, o cümlədən YAŞAT Fonduna köçürülməsi üçün hüquqi imkanların yaradılmasını özündə ehtiva edir.

## Tələbələr kirayə evlərin qiymətinə yaxın düşə bilmirlər



Problemin açarı elə bir qurumun əlindədir ki, həll məsələsi ümidsiz görünür

(səh.5)

## "Türkiyə Rusiya və Qərb arasında körpüdür"

Turab Rzayev: "Onlar ən kritik məqamda bir-birlərinə güzəştə getməyi bacarırlar. Çox güman, yenə "dil tapacaqlar"

(səh.5)



# Ərdoğan Putinlə təkbətək müzakirə aparacaq

## Soçidə önəmli qərarlar qəbul olunacaq



(Əvvəli səh.1)

*O qeyd edib ki, səfər zamanı iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə genişləndirilmiş görüş olmayacaq:*

"Sadəcə, cənab Putinlə ikitərəfli görüşümüz olacaq. Təbii ki, bu, sadəcə İdlib məsələsinə həsr olunan danışıqlar olmayacaq. Eyni zamanda, Türkiyə-Rusiya əlaqələri və Suriya-

**Türkiyə Prezidenti: "Paşinyandan müsbət mesajlar alırıq"**

da vəziyyətin necə olduğunu, bundan sonrakı mərhələdə atılacaq addımları geniş şəkildə müzakirə edəcəyik. Hər hansı üçüncü şəxsin iştirakı olmadan müzakirələr aparacağıq". (report)

**Ərdoğan əlavə edib ki, Türkiyə-Rusiya əlaqələrində önəmli bir qərar qəbul ediləcək:** "Türkiyə və Rusiya bölgədə iki önəmli ölkədir. Biz bu günə qədər Rusiya ilə münasibətlərdə hər hansı bir səhv görməmişik. İki ölkə arasında ticarətin həcminə baxsaq, bu, çox müsbətdir və daim inkişaf edir. Suriya məsələsi ilə bağlı bəzi zamanlarda çətinliklərlə üzləşirik. Amma istər özüm, istərsə də müdafiə və xarici işlər nazirlərimiz atdığı addımlarla dərhal gərginliyi aradan qaldıra bilirik".

## Sentyabrın 27-də Azərbaycanda Anım Günü qeyd olunacaq

(Əvvəli səh.1)

**Bununla əlaqədar olaraq bu il sentyabrın 27-də bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulur.**

Təşkilat Komitəsindən verilən məlumata görə, Anım Günündə şəhidlərimiz Azərbaycanda fəaliyyət göstərən dini məbədlərdə - məscidlərdə, kilsələrdə, sinaqoqlarda dərin ehtiramla yad olunacaq, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunacaq.

Saat 12:00-da ölkə ərazisində şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək.

Axşam saatlarında xüsusi işıqlandırma ilə bir sıra binalarda, o cümlədən Heydər Əliyev Mərkəzinin binasının və "Alov qüllələri"nin üzərində Azərbaycan bayrağı əks olunacaq. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən anım tədbirləri keçiriləcək.

Anım Günü ilə əlaqədar mərkəzi və yerli icra hakimiyyəti strukturları ölkə miqyasında bir sıra tədbirlər təşkil edəcək, eləcə də ölkəmizin xaricində anım mərasimləri keçiriləcək.





## Azərbaycanda beşillik iqtisadi inkişaf planı hazırlanır

**Azərbaycan iqtisadiyyatının inkişafı üzrə beşillik strateji plan bu ilin sonunadək qəbul olunacaq.**

Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.

O bildirib ki, bu plan ölkənin iqtisadi inkişafına xidmət edəcək.

Nazirin sözlərinə görə, Azərbaycanın ümumi daxili məhsulunun cari artım tempi gözləntiləri üstələyib:

"Bu il ixracın da artımı gözlənilir. Biz görürük ki, xammalın təkrar emalı və bunun sayəsində ixracın artırılması üçün potensial var".

# Buzlar əriyir

## Rusiya NATO ilə anlaşmaq niyyətindədir

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov BMT Baş Assambleyasındakı iştirakına NATO Baş katibi Yens Stoltenberqlə görüşlə başlayıb. S.Lavrov protokol foto çəkilişi zamanı masa ətrafında sıxlaşan jurnalistlərə müraciət edib: "Şansınızı sınamayın. Rusiya NATO-ya üzv olmayacaq" - deyə rusiyalı diplomat zarafat edib.**

Daha sonra görüş bağlı qapılar arxasında davam edib. Mətbuata verilən növbəti açıqlamada qeyd olunub ki, görüşdə Rusiya-NATO münasibətlərinin hazırkı vəziyyəti müzakirə edilib.

"Rusiya tərəfindən təmas xətti boyunca gərginliyi azaltmaq üçün konkret təkliflər irəli sürülüb", - deyə Rusiya tərəfindən verilən açıqlamada vurğulanır.

**Görüş barədə fikirlərini "Şərq"lə bölüşən politoloq Natiq Miri qeyd edib ki, NATO-nun son sammitindən sonra əsas hədəflərindən biri olaraq Rusiya göstərilmişdi:** "Əlbəttə ki, o gündən bu günə Rusiya-NATO münasibətləri yalnız qarşılıqlı olaraq güc nümayiş etdirmə səviyyəsində davam edir. Məlumdur ki, həm Rusiya, həm də NATO öz sərhədləri çərçivəsində hərbi təlimlər keçirirlər. Həmin təlimlərin hədəfi də birmənalı olaraq qarşı tərəfdir.

Bu gün NATO-nun Rusiya ilə Qara



dənizdə, xüsusilə Ukrayna və digər bölgələrdə ciddi problemləri mövcuddur. NATO hesab edir ki, Rusiya Şərqi Avropa ölkələrinə ciddi şəkildə təhdid yaradır.

Rusiya NATO ölkələri olan Pribaltika və Skandinaviya dövlətləri üçün də təhdid olaraq qalır. Bu faktın özü göstərir ki, Rusiya ilə NATO arasında problemlər qalır. Fikrimcə, Rusiya özü üçün ən ciddi təhdid hesab etdiyi NATO ilə anlaşmaq istəyir. Lavrovun bu görüşü bütövlükdə ümumi sülhə xidmət edən məsələdir.

Çünki ikisi də dünyada qarşı-qarşıya duran hərbi güc mərkəzlərinin təmsilçiləridir. Onların anlaşması bütövlükdə dünyaya sülh və əmin-amanlıq gətirə bilər".

**Yeganə Bayramova**

# Medianın İnkişafı Agentliyində məişət zorakılığı ilə bağlı müzakirə aparılıb

**Dünən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycanda məişət zorakılığına məruz qalan şəxslərin təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi üçün dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin imkanlarının gücləndirilməsi" adlı Tvinninq layihəsi çərçivəsində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində görüş keçirilib.**



"Şərq"in məlumatına görə, görüşdə Tvinninq layihəsinin "İctimai maarifləndirmə kampaniyasının aparılması" adlı komponenti çərçivəsində Bakıya səfər edən avstriyalı ekspertlər Thomas Hainlen və Manuela Hargassner-Delpos, rezident tvinninq əlaqələndiricisi Laurynas Totoraitis, eləcə də Dövlət Komitəsinin İnformasiya şöbəsinin müdiri Elgün Səfərov iştirak edib.

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov qurumun fəaliyyəti barədə məlumat verib. Mediada məişət zorakılığı məsələlərinin işıqlandırılması ilə bağlı müxtəlif məqamları müzakirə edib və bu sahədə jurnalistlərin məlumatlılığının artırılmasının əhəmiyyətini vurğulayıb. Rezident tvinninq əlaqələndiricisi Laurynas Totoraitis isə media nümayəndələri üçün nəzərdə tutulan təlimlərin təşkilində MEDİA Agentliyinin rolunu xüsusi qeyd edib.

Görüş zamanı bildirilib ki, bu ekspert missiyası çərçivəsində məişət zorakılığı sahəsində ictimai maarifləndirmə kampaniyasının aparılması üzrə proqramın işlənib hazırlanması nəzərdə tutulub. Proqram Tvinninq layihəsinin ekspertlərinin dəstəyi və Dövlət Komitəsinin müvafiq əməkdaşları və media nümayəndələrinin iştirakı ilə işlənib hazırlanacaq.

*Qeyd edək ki, tvinninq layihəsinin məqsədi məişət zorakılığı qurbanlarının təhlükəsizliyinin və onlara dəstəyin təmin edilməsi sahəsində dövlət qurumlarının və yerli səviyyədə istiqamətləndirmə mexanizmlərinin potensialının gücləndirilməsidir.*

# "İranın Azərbaycanla sərhəddə təliminin vaxtı və yeri deyildi"

## Türkiyənin İran Araşdırmaları Mərkəzinin direktoru narazılığını bildirib





**"Keçirdiyimiz görüşlərdə bu məsələ çox danışıldı. Azərbaycan xalqı təbii olaraq bu suala cavab tapmaq istəyir ki, qonşumuz, tarixdaşımız, mədəniyyətdaşımız İran niyə Azərbaycana qarşı belə davranır?"**



Bunu Türkiyənin İran Araşdırmaları Mərkəzinin direktoru Haqqı Uyğur Ağdam rayonuna səfər zamanı APA-nın yerli bürosuna açıqlamasında İranın Rusiya sülhməramlılarının nəzarəti altında olan Azərbaycan ərazilərinə Bakının icazəsi olmadan yük daşıması ilə bağlı deyib.

**H. Uyğurun sözlərinə görə, qarşı tərəf bunun anlaşılmazlıq olduğunu bildirir:** "İranlı dostlarımızın bizə söylədiyi budur ki, yanlış anlaşılma olub, belə hallar bir də təkrarlanmayacaq. Sürücülərin öz təşəbbüsləri, öz işgüzarlıqları ilə bunu etdiyi, bundan sonra təkrarlanmayacağını bildirirlər. İnşallah biz də ümid edirik ki, həqiqətən də belədir, bundan sonra İrandan Azərbaycan ərazilərinə avtomobillər qanunsuz göndərilməyəcək, yüklər daşınmayacaq, İran da özünə, müsəlman və qardaş ölkəyə yaraşan davranış göstərəcək".

**İranın Azərbaycanla sərhəddə təlimlər keçirməsinə münasibət bildirən H. Uyğur deyib ki, Azərbaycana səfərlərinin bir məqsədi də məhz bu məsələlərə aydınlıq gətirilməsidir:** "Bunu İran rəsmilərindən dəqiqləşdirmək, soruşmaq lazımdır. Bilirsiniz, bəzən media üzərindən təmaslar yanlış anlaşılmalara səbəb olur. İran mediasında bizim əleyhimizə çox məlumatlar yayılır. İranda Türkiyə-Azərbaycan işbirliyindən çox narahat olan qruplar var. Azərbaycan, Türkiyə və Pakistanın iştirakı ilə Azərbaycanda keçirilən təlimləri İranda bəzi dairələrin etirazına səbəb oldu. Halbuki bu, İran əleyhinə təlimlər deyil. Təəssüf ki, İranda buna çox həssas yanaşan dairələr var. Bunların hamısı müzakirə olundu. İranda sərt mövqe tərəfdarı, türk allergiyası olan dairələr var. Bəlkə onların da təsiri ilə "Biz də buradayıq, biz də təlim keçirib, güclü olduğumuzu göstərək" kimi mesaj verirlər. Lakin bunlara heç bir ehtiyac yoxdur. Biz onsuz da İranın güclü dövlət olduğunu bilirik, bu təlimlərin yeri və vaxtı deyildi. Amma təbii ki, İran sərbəst və suveren ölkədir. İstədiyi vaxt ölkənin istənilən yerində təlim keçirməsində bir narahatlıq yoxdur".

O, Qarabağ müharibəsində İran tərəfinin atdığı yaraşmayan addımlara Türkiyədə ən sərt cavab verdiklərini də xatırladıb: "Allah qorusun, oxşar hallar təkrarlanarsa, eyni şəkildə də cavab verəcəyik".

**İsmayıl Qocayev**

**Gürcüstanın Baş naziri İrakli Qaribaşvili və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında danışıqlar baş tutub. Tərəflər Cənubi Qafqazdakı vəziyyəti müzakirə ediblər. Baş nazir İrakli Qaribaşvili deyib ki, Gürcüstan Qafqaz regionunda uzunmüddətli sülh və sabitlik üçün sülhməramlı funksiyasını yerinə yetirməyə hazırdır.**



# Qərb də, Rusiya da fərqindədir

## Türkiyə regionun mühüm oyunçusuna çevrilir

Qaribaşvilinin sözlərinə görə, Gürcüstan əsas məqsədi regionda sülh və sabitliyi qorumaqdır. Məlum olduğu kimi rəsmi Tiflis ABŞ-ın dəstəyi ilə Bakı və İrəvan arasında humanitar məsələlərlə bağlı bir dəfə vasitəçilik edib. Bu missiyanı yenidən davam etdirmək niyyətindədir. Bölgədə Rusiyanın vasitəçiliyinə Gürcüstanın alternativ olması ABŞ-ın da istəyinə uyğundur. Bu, rusların qarşısında alternativ qazanmaq baxımından Bakıya da, İrəvana da sərf edir. Hər iki ölkənin lideri Azərbaycanın 15 erməni əsgərini minalanmış sahələrin xəritələri qarşılığında Ermənistana verməsi məsələsində də toxunublar. Qaribaşvili və Ərdoğan bu mübadilənin "qonşular arasında əməkdaşlıq üçün yaxşı bir təməl olduğunu" qeyd ediblər. Mühüm məqamlardan biri də Gürcüstanın "Altılıq platforması"na cəlb edilməsi ilə bağlıdır. Rəsmi Tiflis Rusiya amilinə görə, platformadan uzaq dayanır. Lakin Ərdoğanın Qaribaşviliyə platformaya qoşulacaqları təqdirdə qazana biləcəkləri dividendləri izah etməsi istisna edilmir. Ekspertlərin fikrincə, Gürcüstanın bölgədəki proseslərdən kənarda durmaması, daha doğrusu, Bakı-Ankara orbitində qalması regional platformaya qoşulması üçün qapıların aralı saxlanılması baxımından əhəmiyyətlidir.

**Politoloq Azər Rəşidoğlu "Şərq"ə açıqlamasında vurğulayıb ki, Azərbaycan və Gürcüstan NATO-ya daha açıq ölkələr kimi səciyyələndirilir. Lakin ekspertə görə, bölgədə elə proseslər baş verir ki, siyasi müstəvidə kimin hansı gedişləri edəcəyini təxmin etmək qəlizləşir:** "Rusiya və Qərb tərəfindən təzyiqlərlə üzləşən Azərbaycan yeni "xilas kəməri" axtarışındadır. Son vaxtlar bu missiyanı qonşu Türkiyə oynamağa başlayıb. Türkiyə bölgədə möhkəmlənmək üçün Cənubi Qafqaza nəzarəti ələ keçirmək istəyir. 44 günlük savaşın nəticələri də buna imkan yaradır. Gürcüstanla münasibətlərdə ciddi böhran yaşamayan Ankara İrəvanla əməkdaşlığı istisna etmir. Türkiyə bölgədə əməkdaşlığın əsas vektorunun Türkiyə-Azərbaycan, Türkiyə-Gürcüstan münasibətləri olduğunu

> "Bölgədə elə proseslər baş verir ki, siyasi müstəvidə kimin hansı gedişləri edəcəyini təxmin etmək qəlizləşir"

yaxşı anlayır. Cənubi Qafqazdakı etnik münaqişələr SSRİ-nin dağılmasına səbəb olub. Odur ki, bölgə dünya üçün önəmli bir məkana çevrilib. Regionun mühüm oyunçusu kimi Türkiyə proseslərə daha fəal müdaxilə etmək niyyətini gizlətmir".

*A.Rəşidoğlunun sözlərinə görə, Türkiyənin Cənubi Qafqazda rolu xeyli artıb:* "Azərbaycan və Gürcüstanın hərbi təhsil sisteminin NATO standartlarına uyğunlaşdırılmasından ibarət olan hərbi kadr hazırlığında Ankaranın fəallığını xüsusilə qeyd etmək lazımdır. Ankaranın fəallığı Türkiyənin bölgədə güc mərkəzinə çevrilməsinə imkan verir. Formalaşan hərbi alyansın postsovet məkanında öz maraqlarının müdafiəsi üçün açıq-aşkar hərbi alətdən istifadə edən Rusiyaya qarşı yönəldiyini hesab edənlər az deyil. Türkiyənin Cənubi Qafqazdakı tərəfdaşları ilə inkişaf edən hərbi əməkdaşlığına, Bakı və Tiflisin NATO ilə genişlənən münasibətlərinə Qərb və Rusiya neytral izləyici timsalında yanaşır. Çünki NATO-nun planları bir sıra hallarda Türkiyə ilə ziddiyyət təşkil edir. Bu məhələdə Ankaranın rolu NATO-nun rəqibi olan Moskvanı qane etməyə bilməz".

**Siyasi şərhçinin qənaətincə, Rusiyanın cənub sərhədlərində Ankara və Moskva əməkdaşlığı da aktuallığını artırıb:** "Moskvanın səssiz razılığı olmadan Türkiyə-Azərbaycan-Gürcüstan arasında üçtərəfli hərbi format yaratmaq imkansız olardı. Digər tərəfdən, Rusiya və NATO-nun regionda status-kvosunun müvəqqəti xarakter daşıması ehtimalı azdır. Rusiya İranın nüvə proqramı üzrə danışıqlarda konstruktiv iştirak edir. Marşrutların diversifikasiyası vasitəsilə Avropanın enerji təhlükəsizliyi sistemini formalaşdırır. Rusiyanın qlobal iqtisadiyyata cəlb olunması prosesinin sürətləndirilməsi təhlükəsizlik sahəsində Kremlin Qərblə əməkdaşlığını vacib edir. Yəni Moskva Qərb qarşısında geri çəkilməkməcburiyyətində qalır. Bakı da bu şansdan istifadə etmək istəyir. Proseslərin belə inkişafı İrəvana da sərf edir. Ermənistanın gələcəyi Bakı, Ankara və Qərblə əməkdaşlıqdan asılıdır. Bəhs etdiyiniz formatın reallaşması mümkündür".

# Fransa və ABŞ Cənubi Qafqazda söz sahibi olmaq istəyir

## “Münaqişəni özü həll edən Azərbaycan tərəfi mənasız vasitəçiliyə qətiyyən imkan verməyəcək”




İsmayıl Qocayev

**BMT Baş Assambleyası çərçivəsində ATƏT-in Minsk qrupu həmsədrlərinin görüşü baş tuta bilər. Bu barədə Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko deyib. XİN rəsmisi həmsədrlərin Azərbaycan və Ermənistanın XİN rəhbərləri ilə görüşməsini də mümkün sayıb. Rudenko hesab edir ki, görüş iki ölkə arasında münasibətlərin normallaşmasının praktiki mərhələyə keçdiyinin müsbət işartısı ola bilər.**

O xatırladıb ki, Minsk qrupunun rusiyalı həmsədri İqor Xovayev həm Bakıda, həm İrəvanda olub və bir sıra görüşlər keçirib. Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasının Minsk qrupundakı həmsədrini avqustun 30-da qəbul edib. Nazir qarşı tərəfə bölgədəki cari vəziyyət barədə məlumat verib. Üçtərəfli bəyanatdan irəli gələn müddəaların həyata keçirilməsi və etimadın qurulması tədbirlərinin reallaşması ətrafında fikir mübadiləsi aparılıb. Görünən odur ki, rəsmi Bakının birmənalı mövqeyinə rəğmən, müəyyən qüvvələr həmsədrlər məsələsinin gündəmdən çıxmasına imkan vermirlər. Ara-sıra öz aralarında görüşən vasitəçilər Azərbaycan və Ermənistan rəsmiləri ilə də təmas qurmaq niyyətlərini açıqca ortaya qoyurlar. Həm də bu təkliflə Rusiya tərəfi çıxış edir.

**”Həmsədr” oyunları ilə bağlı ”Şərq”ə danışan siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev vurğulayıb ki, ABŞ, Fransa, eləcə də Rusiya missiyasını başa vurmuş Minsk qrupunu yenidən dirçəltmək cəhdləri göstərir.** Professorun fikrincə, hər üç ölkənin ayrıca maraqları var: ”Formalaşdırılmaqda olan dünya düzəni 2025-ci ildə başa çatmalıdır. Yeni düzəndə Qafqaz regionu mühüm strateji mövqeyə malikdir. Çinin ”Bir yol, bir kəmər” layihəsinin şimaldan keçən hissəsində Azərbaycan da yer tutur. Çin Pekin-London marşrutu ilə bərabər Afrika layihəsini də gündəmə gətirir ki, həmin yol üzərində də açar dövlət məhz Azərbaycandır. Bakıya yaxın olmağın yolu Qarabağ məsələsində və Azərbaycan-Ermənistana müəyyən rol oynamaqdan keçir. Fransa və ABŞ Cənubi Qafqazda söz sahibi olmaq üçün səy göstərirlər. Rusiya isə regiondakı imperialist siyasətini daha da möhkəmləndirmək niyyəti güdür. Vaşinqtonla Moskvanın, hətta Amerika ilə Fransa arasında gərginlik olsa belə Cənubi Qafqaz bölgəsində hər üç ölkənin maraqları üst-üstə düşür. Burada geoiqtisadi maraqlarla yanaşı, xristianlıq təəssübkeşliyi də mühüm rol oynayır. Ancaq hamısının üstündə ticarətə əsaslanan siyasi ambisiyalar dayanır. Hazırda dünyada ticarət dövriyyəsi artmaqdadır. Lakin dəniz daşımaları ciddi problemlər yaradır. Pekindən Londona dəniz yoluyla daşımada 60 gün tələb olunursa, quru yolunda məsafə iki dəfə azalır. Ticarət dövriyyəsinin sürətini artırmaq, çalarlarını genişləndirmək və şaxələndirmək üçün əlavə tranzit dəhlizləri zəruridir. Yeni tranzit dəhlizinin ortasında yerləşən Cənubi Qafqaz regionu, dolayı yolla Azərbaycan Avropa və Asiya üçün çox önəmlidir”.

*C.Nuriyev vurğulayıb ki, hər üç ölkə ATƏT-dəki nümayəndələri yeniləməklə qurumu ”yeni format”da tərəflərə təqdim edirlər:* ”Məqsəd Azərbaycanla Ermənistan arasında sülh yaratmaq, bölgədəki gərginliyi azaltmaq deyil. Əksinə, həmsədrlərin niyyəti prosesləri yenidən Minsk qrupu çərçivəsinə salaraq uzatmaqdır. Rusiya ABŞ-ın regiona girməsində maraqlı deyil, çünki Ağ Evin əsas qayəsi çoxmillətli Rusiyanı parçalamaqdır. Lakin Moskvanı daha çox narahat edən məqam Türkiyənin Cənubi Qafqazda güclənməsi, soz sahibinə çevrilməsidir. Kremlin ATƏT-i bölgəyə səsləməsinin, daha doğrusu, gəlişinə göz yummasının səbəblərindən biri budur. Bütün hallarda ”həmsədr” oyunları nəticəsiz qalacaq. Münaqişəni özü həll edən Azərbaycan tərəfi mənasız vasitəçiliyə qətiyyən imkan verməyəcək”.



# Suallar hər zaman qalacaq

## İran-Azərbaycan arasındakı gərginlik hələ azalmayıb

İsmayıl Qocayev

**Nyu-Yorkda Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu ilə İranın XİN rəhbəri Hüseyn Əmirabdullahian arasında görüş keçirilib. Nazirlər regional məsələləri müzakirə edib və qeyd olunub ki, indi iki ölkə arasında məsləhətləşmələrə daha çox ehtiyac var. Tərəflər Tehranda İran, Azərbaycan və Türkiyə xarici işlər nazirlərinin toplantısının keçirilməsinə dair razılıq əldə ediblər.**

Çavuşoğlu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın İran rəhbəri İbrahim Rəisini ölkəsinə səfərə dəvət məktubunu nazirə təqdim edib. Qeyd edək ki, sonuncu dəfə 2018-ci ilin oktyabrın 30-da İstanbulda Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin VI üçtərəfli görüşü keçirilib. Görüşdə İstanbul Bəyannaməsi imzalanıb.

**Üçlü görüş razılığı ilə bağlı ”Şərq”ə açıqlama verən ”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu vurğulayıb ki, İran-Azərbaycan münasibətlərində gərginlik davam edir. Analitikin sözlərinə görə, rəsmi Bakı Tehranla münasibətlərdə problem istəmir:** ”Ancaq İran Ermənistan üzərindən qanunsuz olaraq Qarabağa yanacaq daşıyır. Ərdəbil imamı Seyid Həsən Amuli Azərbaycanı hədələyir. Üstəgəl, Tehran Türkiyə-Azərbaycan hərbi ittifaqını yanlış olaraq özü üçün təhlükə sayaraq sərhəddə hərbi təlimlərə başlayır. Əlbəttə, İranın harada təlim keçirməsi daxili işidir. Ancaq bu halda haqlı sual yaranır. Sərhəd bölgələrimiz 27 il işğal altında olanda Arazın o tayında hərbi təlimlər keçirməyən İran niyə torpaqlarımız azad olunandan sonra təlim keçirməyə qərar verdi?

Mövcud durum Türkiyəni də narahat edir. Ona görə üçtərəfli görüşə ehtiyac yaranıb ki, məsələlərə aydınlıq gətirilsin. Əslində Azərbaycan-Türkiyə-İran üçtərəfli formatı illərdir mövcuddur. Bu format əsasında xarici işlər nazirlərinin görüş təşəbbüsü Tehrandan gəlib və görüş yeri kimi İranın paytaxtı seçilib. Bu görüşə qədər Tehran yanacaq dolu yüklərinin Qarabağa girişlərini qadağan etsə, indidən müsbət atmosfer yaratmış olar. Digər tərəfdən Tehran nədənsə narahatdırsa, bunu Amulinin aşağılayıcı dili ilə deyil, diplomatların və rəsmilərin görüşündə səsləndirə bilər”.

**E.Şahinoğlu vurğulayıb ki, İran-Azərbaycan münasibətlərində suallar heç zaman azalmayacaq:** ”Önəmli olan görüşlər və müzakirələr vasitəsilə iki qonşu dövlətin gərginliyinin süni surətdə artırılmasına yol verməməkdir. İran səfirinə Bakıda verilən notadan sonra Qarabağa yenə yük daşımaq və Amulinin əlinə mətn verib Azərbaycanı hədələmək gərginliyin süni surətdə artırılmasıdır. Bu halda gərginliyə ”yaşıl işıq” yandıranın zərəri daha çox olacaq. Tehran anlamalıdır ki, Azərbaycanı hədələmək, qorxutmaq İran üçün əks-effektdən başqa heç nə verməyəcək”.



# Yaxşı olmadı

## Təhsilin əlçatanlığı təmin olunmayan uşaqlar üçün distant təhsil saxlanılmalı idi

**Nazirlər Kabineti “Formal təhsilin təşkili Qaydaları”na dəyişiklik edib. Bu Qaydalar formal təhsilin təşkili məsələlərini tənzimləyir. Formal təhsil dövlət təhsil sənədinin verilməsi ilə başa çatan təhsil formasıdır.**

Ümumi təhsil, peşə təhsili, orta ixtisas təhsili, ali təhsil, yenidənhazırlanma təhsili, təkrar ali və ya orta ixtisas təhsili dövlət təhsil sənədinin verilməsi ilə başa çatdığı üçün formal təhsil hesab edilir. İndiyə qədər ümumi təhsil pilləsi üzrə ibtidai təhsil səviyyəsində təhsilalma forması əyani olub. Dəyişikliyə əsasən, ümumi təhsil pilləsi üzrə ibtidai təhsil səviyyəsində təhsilalma forması sırasına sərbəst (eksternat) təhsil forması daxil edilib. İndiyə qədər ümumi təhsil pilləsində qanunvericiliyə uyğun təşkil edilən şagirdlərin evdə təhsili və fərdi təhsili də formal təhsil hesab edilir. Dəyişikliyə əsasən, stasionar təhsil də formal təhsil hesab ediləcək. Digər dəyişikliyə əsasən, sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsilinin distant formada təşkil olunmasına dair müddəa ləğv olunub.

**Təhsil eksperti Elçin Əfəndi ”Şərq”ə açıqlamasında bildirib ki, əslində təhsilin əlçatanlığı təmin olunmayan uşaqlar üçün distant təhsil saxlanılmalı idi. Ancaq çox təəssüf ki, saxlanılmadı və birbaşa ənənəvi dərslərə keçid oldu:** ”Bəlkə də qarşıdakı dövr ərzində sırf həmin şəxslər üçün dərslər yenidən distant formada ola bilər. Bunun üçün də əlbəttə ki, həmin şəxslərin müvafiq qurumlara müraciət etməsi vacib şərtdir. Əgər onlar həqiqətən də tədrisə ənənəvi qaydada qoşula bilmirlərsə, mütləq ki, distant formalı təhsildən yararlanmalıdırlar. Hazırda Təhsil Nazirliyinin teledərsləri davam edir. Həm rəsmi feysbuk hesabından, həm də televiziyalar vasitəsilə. Yəni dərsə qoşula bilməyən və ya dərsləri yaxşı mənimsəməyən şəxslər üçün imkan yaradılır ki, onlar ordan müvafiq mövzuları öyrənə bilsinlər. Hesab edirəm ki, ənənəvi qaydada tədris imkanlarından məhrum olan uşaqlar təhsil aldıqları müəssisəyə və ya Təhsil Nazirliyinə bununla bağlı müraciət göndərsələr, yəqin ki, o zaman onların xeyrinə bir qərar verilə bilər”.

**Aynurə Pənahqızı**

# Qara günün ömrü uzanır

## Xankəndi erməniləri gəlir mənbələrini itiriblər

Yeganə Bayramova

**Qarabağdakı döyüşlərdə Azərbaycanın qələbəsi, işğal altında olan torpaqların böyük hissəsinin azad edilməsi və ermənilərin ağır məğlubiyyətə uğramasından sonra Xankəndi və onun ətrafındakı ermənilər əmlaklarını satışa çıxarıblar. Hazırda Xankəndi və ətrafında yerləşən yüzlərlə əmlaklar - mənzil, ev, müxtəlif kommersiya obyektləri və torpaq sahələri satışa çıxarılıb.**

Sentyabr ayında təkcə bir elan saytında 4 ev, 2 obyekt satışa qoyulub. Məlumata görə, ermənilərin böyük əksəriyyəti daşınmaz əmlaklarını aşağı qiymətə satırlar.

**Mövcud durumla bağlı ”Şərq”ə danışan siyasi şərhçi Asif Nərimanlı Xankəndidəki vəziyyətin kifayət qədər ciddi olduğunu söyləyib:** ”Erməni mətbuatında da bunu aydın görmək olur. Ermənistanda daşınmaz əmlakın satışı ilə bağlı saytlara baxdıqda kifayət qədər erməninin Xankəndi, o cümlədən rus sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə evlərini və obyektlərini satdıqlarını görürük. Bu, təəccüblü deyil və gözlənilən proses idi. Çünki müharibədən sonra Xankəndidəki ermənilərin kifayət qədər gəlir mənbəyi sıradan çıxdı. Bütün bunlar onsuz da pis olan vəziyyəti bir qədər də ağırlaşdırdı. Əhalinin mənzil problemi yarandı, gəlir mənbələrini itirdilər, hətta informasiya var ki, iki ailə bir yerdə zirzəmidə belə yaşamağa məcbur olub. Xankəndidə evlərini satan erməniləri iki qrupa ayırmaq olar. Birincisi, elələri var ki, onlar Qarabağda olan mənzil və obyektlərini satmaq istəyirlər. Məqsədləri satışı həyata keçirən kimi bölgəni tərk etməkdir. İkinci qrup isə əsasən Rusiyada yaşayan ermənilərdir və vaxtilə Xankəndidən ev alıblar. Məlumata görə, evlərini dəyər-dəyməzinə belə satan ermənilər var”.



**Ona görə evlərini, obyektlərini dəyər-dəyməzinə satırlar**

**A.Nərimanlının sözlərinə görə, Qarabağda ermənilərin yaşadığı ərazidə mobil rabitə, su, iş və mənzil problemləri var:** ”Ona görə də ermənilər orada yaşamaq istəmirlər. Zaman keçdikdə isə onları daha çətin vəziyyət gözləyir. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, ermənilərin yeganə yolu Azərbaycan vətəndaşı olaraq yaşamaqdır. Gələcəklərini qurmaq istəyirlərsə, istəklərimizi qəbul etməlidirlər. Çünki başqa çıxış yolları yoxdur. Qarşıdakı dönəmlərdə ermənilərin köç məsələsi daha da genişlənəcək”.

# Müxalifətin anonsları özünü doğrultdu

## Rusiyada seçki sisteminin saxtalaşdırılmasının ən asan yolu elektron səsvermə idi



**Bütün etirazlara baxmayaraq Rusiyada seçkilərin təkrar keçiriləcəyi real deyil**

İsmayıl Qocayev

**Rusiyada Dövlət Dumasına seçkilərin nəticələri müxaliflər, xüsusən Kommunist Partiyası tərəfindən boykot edilməkdədir. Bir qrup müstəqil bələdiyyə və region deputatı saysız qanun pozuntularına görə, 17-19 sentyabr seçkisinin nəticələrinin ləğvini tələb edən petisiyaya start veriblər.**

Seçkiləri detallı təhlil etməklə tanınan rusiyalı tədqiqatçı Sergey Şpilkin deyib ki, Dövlət Dumasına seçkidə hakim Vahid Rusiya partiyasının qələbəsi saxtakarlıq sayəsində mümkün olub. Onun sözlərinə görə, səsvermədə manipulyasiya olmasaydı, Kremlin dəstəklədiyi Vahid Rusiya Partiyası Mərkəzi Seçki Komissiyasının açıqladığı kimi 50 faizə yaxın yox, 31-33 faiz səs yığardı. Həbsdə olan müxalifətçi Aleksey Navalnının təbliğ etdiyi alternativ səsvermə tətbiqinə hökumətin təzyiqi, onu şəbəkələrdən sildirməsi və digər məsələlər də Duma seçkisinin nəticələrinə şübhələri artırıb. Ən ciddi narazılıq isə elektron səsvermə ilə bağlı olub. Elektron sistemlə səslərin nəticələri elan olunanadək dairələrin əksərində müxaliflərin səsləri üstün olub. Lakin elektron nəticələr əlavə edildikdən sonra vəziyyət hakim partiyanın xeyrinə dəyişib. Həmçinin elektron bülletenlərin sayında da problemlərin olduğu bildirilib. Rusiyanin Kommunist Partiyası səsvermənin nəticələrini tanımaqdan imtina edib. Seçkilərə müşahidəni həyata keçirən qərargahdan Moskva şəhərində elektron formada verilən səslərin yenidən sayılacağı bildirilib. Bununla bağlı texniki qrup da yaradılıb. Hətta elektron səsvermənin ləğvi və 27 sentyabradək yenidən ənənəvi formada səsvermənin keçirilməsi də təklif olunub.

**Rusiyada Dumaya keçirilən seçkilərlə bağlı narazılığı ”Şərq”ə şərh edən BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov deyib ki, seçki prosesinin elektron formada olacağı elan ediləndən sonra problemlərin ortaya çıxacağı bəlli idi.** Siyasi şərhçiyə görə, Rusiyada seçki sisteminin saxtalaşdırılmasının ən asan yolu elektron səsvermə idi: ”Seçkidə iştirak edən partiyaların anonsları özünü doğrultdu. Fikrimcə, seçki sisteminin son anda elektron səsvermə ilə keçirilməsinə səs vermək hakimiyyətdaxili qrupların Putinə tələ qurmasıdır. Seçkinin bu formada keçirilməsinin digər partiyalar tərəfindən narazılıqla qarşılanacağı əvvəlcədən məlum olduğu üçün Putin xəstəlikdən qorunmaq adı ilə bunkerə qapandı. Narazılıq nəticəsində ölkədaxili müxalif qrupların aktivləşməsinə zəmin yaradıldı. Həm siyasi, həm də ordu rəhbərliyinin yuxarı eşalonunda və hərbi sənaye kompleksində Putinə qarşı qüvvələrin olduğu hamıya məlumdur. Bu vəziyyətdə Kreml rəhbərinin hansı addım atacağı maraq doğurur”.

*A.Qasımov seçkilərin təkrar keçiriləcəyinə inanmadığını deyib:* ”Təkrar seçki sistemə olan münasibəti dünya ictimaiyyəti qarşısında zəiflədər, heçə endirər. Xırda düzəlişlərlə seçkinin nəticələrinin qalacağı qənaətindəyəm. Kommunist və ya Liberal demokratların qalib gəldiyi seçki nəticələrinin rus xalqı üçün ciddi xeyir gətirməyəcəyini düşünürəm. Rus xalqı ən azı Putinin rəhbərlik etdiyi partiyanın idarəçiliyi altında illərdir sakit həyat yaşayır”.





# Şeyxin Amuliyə cavabı gecikmişdi?

**Tural İrfan:** ”Diplomatiyada zaman ən önəmli faktordur. Gecikmiş cavab cavab deyil”

**Sərdar Cəlaloğlu:** ”Şeyxülislamın cavabı daha çox siyasi bəyanatdır. Gecikmiş də olsa, hər halda cavab verilməsi düzgün addım idi”

**Məlum olduğu kimi İranın dini lideri Xamneyinin nümayəndəsi, Ərdəbil şəhərinin din xadimi Seyid Həsən Amulinin Azərbaycanı hədələməsi ölkə ictimaiyyətinin kəskin etirazına səbəb olub. Cəmiyyətin ən müxtəlif təbəqələrini əhatə edən şəxslər Amulinin fonunda İranın bu mövqeyini tənqid ediblər.**

Nəhayət, susqun qaldığı üçün ciddi tənqidlərlə üzləşən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə də Ərdəbilin imam-cüməsinin sərsəm fikirlərinə münasibət bildirib. Şeyxülislam deyib ki, Vətən müharibəsinin birinci ildönümü ərəfəsində Ərdəbil imamının səsləndirdiyi fikirlər cəmiyyətdə təəssüflə qarşılanıb və dindarların haqlı narazılığına səbəb olub. QMİ rəhbəri qeyd edib ki, Amilininin məlum çıxışı İran-Azərbaycan əlaqələrinin möhkəmlənməsinə xidmət etmir: ”Ərdəbil kimi qədim, zəngin tarixə malik bir Azərbaycan şəhərində, dini-mədəni irsimizə həmişə ehtiram bəsləyən bir icmanın hüzurunda belə bir çıxışı özünə rəva bilmək azı hörmətsizlikdir. İranın da etiraf etdiyi kimi, Azərbaycan öz torpaqlarını - Qarabağı azad etməklə ərazi bütövlüyünü bərpa edib. Erməni barbarlarının dağıtdığı evlərimizin, viran qoyub donuz tövləsinə çevirdiyi məscidlərimizin bərpası Amulini də sevindirməli idi. Lakin təəssüf ki, Ərdəbil məscidinin imamı qəsbkarların, separatçıların vandal əməllərinə göz yummağı tərcih etdi. Biz dindarlar, möminlər yəqin ki, ”şir”dən, onun quyruğundan, müharibədən deyil, Allahın buyurduğu, Peyğəmbərimizin tövsiyə etdiyi kimi sülh, barış, dinclik niyyətindən, onun rəmzi olan göyərçindən danışmalıyıq”.

Məlumat üçün deyək ki, İran mollasına ilk rəsmi və tutarlı etiraz cavabı verən yüksək mənsəbli ruhani məhz Şeyx oldu. Təəssüf ki, bir-iki şəxsi çıxmaqla ölkədə nüfuz sahibi olan heç bir ruhani İrana cavab vermək istəmədi. Özlərində bu cəsarəti tapmadılar. Lakin QMİ sədrinin cavabını da yetərsiz sayanlar, qənaətbəxş hesab etməyənlər var.

**İlahiyyatçı Tural İrfan ”Şərq”ə açıqlamasında deyib ki, diplomatiyada zaman ən önəmli faktordur. Gecikmiş cavab isə cavab deyil. Ekspert vurğulayıb ki, cavab dərhal, özü də təkcə Şeyx yox, ona tabe olan bütün ruhanilər tərəfindən verilməliydi:** ”Təəssüf ki, ruhanilərimizin çoxu İran müctəhidlərinə tabe olduqları, onları təqlid etdikləri üçün qarşı çıxa bilmirlər. Çünki Həsən Amili Şeyximizin təqlid etdiyi müctəhidin rəsmi nümayəndəsidir. Şeyx bir neçə gün davam edən tənqidlərə və ictimai qınağa görə, yəni ”xalaxətrin” qalmasın deyə bəyanat verdi. Bəlkə qabaqcadan, ya da sonradan İrana mesaj yolladı ki, üzrlü sayın, bunu deməyə məcburam. Yaxud da təqiyyə edə bilər. Təqiyyə İranın indiki vilayəti-fəqih sistemində əqidəsini siyasi məqsədlə gizlətməyə deyilir. İranın ölkəmizdə yetişdirdiyi bu cür yüzlərlə, minlərlə adam var. İran teokratik dövlət olduğu üçün Həsən Amuli rəsmi dövlət adamı sayılır. Ona bizim dövlət rəsmiləri cavab verməlidir”.

**T.İrfan hesab edir ki, bu məsələ söz güləşdirmə müstəvisindən kənar, diplomatik yolla həll olunmalıdır:** ”Yoxsa oradan bir söz deyilsin, bizdən kimsə bir söz desin, bununla nəyəsə nail olmaq olmaz. Hər şeydən öncə ölkəmizdə dini islahatlar aparılmalı, din adamlarının İrandan asılılığına son qoyulmalıdır. Onlar ölkəmizdəki əlaltılarına, müqəllidlərinə güvənib belə guruldayırlar. Digər tərəfdən ölkəmizdə Türkiyə və Pakistan yönümlü dini model formalaşdırılmalıdır. Çünki siyasi, hərbi, iqtisadi yöndən bu dövlətlər bizimlə tam səmimi və qardaşdırlar. Mən söz güləşdirməyin əleyhinəyəm. İranda siyasi hakimiyyətə ruhanilər rəhbərlik edir. Dünyəvi və demokratik dövlət olan Azərbaycanda kimlərinsə İrana bağlı olması təhlükəlidir. Ramazan və Qurban bayramı, dini təqvimlər qardaş Türkiyəyə yox, məhz İrana görə müəyyən edilir. Dini sahədə çox böyük islahata ehtiyac var. Gürcüstan Qafqaz Müsəlmanları İdarəsinin tərkibindən niyə çıxdı? Çünki bu qurumu Rusiyanın təsirində olan idarə kimi qəbul etdilər”.

**Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu isə ”Şərq”ə bildirib ki, Şeyxin cavabını Qafqaz Müsəlmanları İdarəsinin mövqeyi kimi qəbul etmir. Partiya sədrinin sözlərinə görə, Şeyxülislamın cavabı daha çox siyasi bəyanatdır:** ”Gecikmiş də olsa, hər halda cavab verilməsi düzgün addım idi. Ümumən, QMİ sədrinin yanaşmasını, vurğuladığı məqamları qənaətbəxş hesab etmək olar. Məncə, kifayətdir. Bundan kəskin formada hansısa açıqlama İran-Azərbaycan münasibətlərini daha da gərginləşdirə bilər. Buna ehtiyac yoxdur, çünki heç bir tərəfə xeyirli deyil. İran hökumətinin son açıqlamaları göstərir ki, Tehran hökuməti sərt ritorikasından vaz keçib və geri addım atıb. İranın xarici işlər nazirinin müavini də mövqe bildirib və yüklərin Ermənistandan Qarabağa daşınmasının yanlış olduğunu söyləyib. İran tərəfi vəziyyəti yumşaldan addımlar atıb”.

**İsmayıl Qocayev**

# Sonuncu ümid də öldü

Buna görə Ermənistanda xarici pasport böhranı yaşanır

Aynurə Pənahqızı



“Ermənistan hökuməti ölkənin sürətli boşalmasının qarşısını almaq üçün süni olaraq maneələr yaradır”

**Ermənistanda vətəndaşlar yeni xarici pasport alan, yaxud onu dəyişən zaman ciddi problemlərlə qarşılaşırlar.**

Bu barədə ”Joxovurd” qəzeti material yayıb. Qəzetin yazdığına görə, xarici pasportun alınmasında problemlərin olduğuna dair Ermənistanın müxtəlif bölgələrindən redaksiyaya telefon zəngi edilir: ”Vətəndaşlar Pasport-viza idarəsinin regional bölməsindən şikayət edirlər. Onlar bildirirlər ki, bölmədən pasport almağa gedəndə rədd cavabı alırlar. Vətəndaşlara kağız olmadığı üçün pasportun çap edilmədiyini deyiblər”. ”Joxovurd”un yazdığına görə, oxşar problemlə Ermənistanın Eçmiədzin, Malatya, Armavir və başqa rayonların sakinləri üzləşir.

**Hazırda həddən çox erməni vətəndaşının Ermənistanı tərk etməyə çalışdığını deyən politoloq Turab Rzayev ”Şərq”ə açıqlamasında bildirib ki, məhz bu səbəbdən də xarici pasporta tələbat artıb və bu sahədə böhran yaranıb.** Politoloq qeyd edib ki, bunun da başlıca səbəbi ermənilərin ümidsizliyə düçar olmasıdır: ”Ermənilər 44 günlük Vətən müharibəsindən sonra ağır, psixoloji məğlubiyyət, lazımsızlıq sindromu keçirirlər. Çünki erməni əhalisinin ”Böyük Ermənistan” xəyalları yerlə bir olub. Məhz bu psixoloji sarsıntı erməni cəmiyyətində böyüdüyünə görə, əhalinin xeyli hissəsi həm Qarabağ bölgəsini, həm də Ermənistanı tərk etməyə çalışır. Burda həm də təbii və süni problemlər ortaya çıxa bilər. Təbii problemlər nədir? Təbii problemlər odur ki, həddən çox insan eyni vaxtda xarici pasport üçün müraciət edə bilər, yəni adi normada gündəlik say çox ola bilər. Təbii ki, bu say da bir neçə dəfə artanda sistemdə ciddi problemlər yaşana bilər və bu səbəbdən də insanlar xidməti çatdıra bilməz. Bir də qeyri-təbii səbəblər ola bilər, yəni Ermənistan hökuməti ölkənin sürətli boşalmasının qarşısını almaq üçün süni olaraq maneələr yaradır. Bu yolla da həm insanların ölkədən getmə faizini azaltmağa çalışa bilərlər, həm də ki, yubada. Ona görə də düşünürəm ki, burda problem daha çox süni səbəblərdən qaynaqlanır”.

## Rus dili bu gün heç bir perspektiv vəd etmir

Aqşin Yenisey: ”Bilgiyə, informasiyaya qalsa, türk dilində dünya rus dilindən daha zəngin ifadə olunur”



**”Rus dili bu gün hansı perspektiv vəd edir axı? Rus sektorunu bitirib bir peşə sahibi olsun deyə indi də alman, ingilis dilini öyrənən dostlarım var”.**

Bu barədə tanınmış yazar Aqşin Yenisey sosial şəbəkə profilində yazıb. Yazar bildirib ki, Azərbaycan xalqında belə bir müstəmləkə düşüncəsi formalaşdırılıb: ”Elə zənn edirlər ki, rus sektorunun uşaqları Azərbaycan sektorunun uşaqlarından daha mədəni olurlar. Valideynlərimizin çoxu da uşaqları özlərinə, dayılarına, xalalarına, əmilərinə zada oxşamasınlar deyə rus sektoruna qoyurlar. Bilgiyə, informasiyaya qalsa, bu gün türk dilində dünya rus dilindən daha zəngin ifadə olunur”.

**İsmayıl**

# Millət vəkili baş prokurorların görüşünə etiraz etdi

“Qarabağla bağlı proseslər başqa ölkədə müzakirə obyekti olmalı deyil”

Yeganə Bayramova

**Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində MDB dövlətləri Baş Prokurorlarının Əlaqələndirmə Şurasının 31-ci iclası çərçivəsində Rusiyanın təşəbbüsü ilə Azərbaycan, Rusiya və Ermənistanın Baş prokurorları arasında üçtərəfli görüş keçirilib.**

Görüşdə üçtərəfli formatın səmərəliliyi qeyd edilərək son 9 ay ərzində Qarabağda qanunun aliliyinin və hüquq qaydasının möhkəmləndirilməsi məqsədilə tərəflərin gördüyü işlər müsbət dəyərləndirilib. Qarabağda yerləşən Rusiya sülhməramlı qüvvələrinə təhkim olunan Baş Hərbi Prokurorluğunun nümayəndələri ilə əlaqəli şəkildə törədilən hüquqpozmalara dair məlumatların mübadiləsi, habelə həmin məlumatlar üzrə müvafiq tədbirlərin görülməsi sahəsində əməkdaşlığın genişləndirilməsinin vacibliyi bildirilib.

Kamran Əliyev 44 günlük Vətən müharibəsindən sonra itkin düşmüş şəxslərin tapılması istiqamətində birgə fəaliyyətin vacibliyinə toxunaraq, bu prosesin davam etdirilməsinin önəmini qeyd edib.

Mina xəritələrinin verilməsinin insanların həyat və sağlamlığının qorunmasında əhəmiyyəti diqqətə çatdırılıb və bu sahədə əməkdaşlığın davam etdirilməsinin zəruriliyi vurğulanıb. Azərbaycan tərəfindən 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata tam şəkildə riayət olunduğu bildirilib.

Rusiyanın Baş prokuroru İqor Krasnov Azərbaycan və Ermənistandan olan həmkarlarına bölgə xalqlarının rifahı naminə sülh və sabitliyə nail olmağa yönəlmiş konstruktiv qarşılıqlı əməkdaşlıq və səylərinə görə təşəkkür edib.

Görüşdə Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən imzalanmış bəyanatların icrası və hüquqi sahədə gələcək əməkdaşlıq məsələləri müzakirə edilib. Tərəflər gələcəkdə gərginliyə səbəb olan halların qarşısının alınması üçün əlaqələrin gücləndirilməsi ilə bağlı razılaşmanı bir daha dəstəkləyiblər.



**Müzakirənin başqa dövlətin ərazisində aparılmasının düzgün olmadığını söyləyən millət vəkili Ceyhun Məmmədovun ”Şərq”ə açıqlamasına görə, bu gün Azərbaycanla Rusiya arasında ölkə rəhbərliyi səviyyəsində əlaqələr var. Ona görə də belə mövzular həmin ölkələrin ərazisində müzakirə olunmalıdır:** ”Hər kəsə bəllidir ki, hüquqpozmalarını daha çox Ermənistan həyata keçirir. Ermənistan da 30 ilə yaxın hüquq pozuntusu törətmişdi, niyə bu günə kimi heç bir reaksiya verilmədi? Əlbəttə, belə müzakirələrin arxa məqsədləri var. Dəfələrlə demişik ki, bölgəyə sülh və əməkdaşlıq gəlməlidir. Bunun üçün ölkələr öz aralarında söhbət aparmalıdırlar. Qarabağla bağlı proseslər başqa ölkədə müzakirə obyekti olmalı deyil. Azərbaycanın qanun pozuntusuna yol verdiyinə dair Ermənistanın hansısa faktı varsa, bu araşdırılsın. Amma 30 il ərzində Ermənistanın dağıtdığı ərazilər, əhalimizin qətlə yetirilməsi kimi pozuntuları da araşdırmaq lazımdır. Azərbaycan açıq və birbaşa münasibətlərin tərəfdarıdır. Hesab edirik ki, kənarda aparılan müzakirələr ölkələrarası münasibətlərin inkişafına töhfə vermir. Ermənistan yenə də təxribatlara davam edir və düzgün mövqe sərgiləmir. Bu da bölgədə müsbət prosesə heç bir təkan vermir”.



# Gərginlik idarəolunan səviyyədə qalacaq

“Bakı milli və təhlükəsizlik maraqları naminə istədiyi addımı atacaq”

**Nyu-Yorkda Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu ilə İran Xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan arasında görüş olub. Bu məlumatı ”Tasnim” agentliyi yayıb.**

Məlumata görə, tərəflər Tehranda İran, Azərbaycan və Türkiyə XİN liderlərinin görüşünün keçirilməsi barədə razılaşıblar. İranlı nazir regionda yeni hadisələrin baş verdiyini və buna görə də ölkələr arasında nizamlı konsultasiyalara ehtiyac olduğunu deyib.

**Nazirlər arasındakı görüş barədə proqnozlarını ”Şərq”lə bölüşən ”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlunun fikrincə, bu, cənub qonşumuzun təşəbbüsüdür:** ”Görüşün Tehranda keçiriləcəyini nəzərə alsaq, belə qənaətə gəlmək olar. Türkiyə Azərbaycanla İran arasındakı gərginlikdən narahatdır. Və bunun səbəbkarı biz yox, cənub qonşumuzdur. Azərbaycan gərginlikdə maraqlı deyil. Lakin rəsmi Bakı milli və təhlükəsizlik maraqları naminə istədiyi addımı atacaq. Biz İran yüklərinin qanunsuz olaraq Qarabağa daşınmasına imkan verə bilmərik. Əlbəttə, üçtərəfli görüşün keçirilməsi müsbət təşəbbüsdür. Yaxşı olar ki, görüşədək İran maşınlarının Qarabağa daxil olmasına qadağa qoyulsun. Əlbəttə, görüş sualların sayını azaltmayacaq. Sadəcə, gərginlik idarəolunan səviyyədə qalacaq. Tehranın təxribatları, qıcıqlandırıcı mesajları isə yaxşı nəsə vəd etmir”.

**Kənan Novruzov**

# Ənənəvi təhsilə qayıtdıq, ənənəvi problemlər var

“Yaşı 65-dən yuxarı olan şəxslərin tədris prosesində iştirakı təhlükəli məqamdır”



**Orta məktəblərdə ənənəvi təhsil bərpa olundu. Baş nazir Əli Əsədovun imzaladığı qərara əsasən, tədrisin təşkilində ali və orta təhsil müəssisələrində sanitariya və gigiyena qaydalarına riayət olunmalıdır. Təhsil Nazirliyi ali təhsil müəssisələrində tədrisin təşkilini universitet rəhbərlərinin öhdəsinə buraxıb.**

Minlərlə tələbənin yenidən ənənəvi təhsilə qayıtması, auditoriyalarda əyləşməsi indiki sanitariya-gigiyena qaydalarına nə dərəcədə əməl edilməsi problemini ön plana çıxarır.

**Bununla bağlı ”Şərq”ə danışan təhsil eskperti Kamran Əsədov bildirib ki, pandemiya səbəbindən 51 ali təhsil müəssisəsində 182 min tələbə təhsil alır və uzun müddətdir ki, onlar, eyni zamanda ali təhsil müəssisələrinin inzibati işçi heyəti müəyyən qədər təlim-tədris prosesindən kənarda qalıblar:** ”Tədrisin əyani formada bərpası zamanı ortaya çıxa biləcək problemlərə ciddi nəzarət olunmalıdır”.

Ekspert hesab edir ki, zərərin az olması üçün ən başlıcası pandemiya dövrünün qaydalarına riayət etməliyik: ”Auditoriyalarda əsas fənlər, yəni ixtisas fənləri ənənəvi qaydada olmalıdır. Məsələn, tarix fakültəsində oxuyan tələbələrin tarixə aid fənləri əyani formada, qeyri-ixtisas, ikinci dərəcəli fənlər isə onlayn qaydada tədris edilməlidir”.

**K.Əsədov həmçinin diqqətə çatdırıb ki, auditoriyalarda tələbə sayı 70-dən artıq olmamalıdır:** ”Bu zaman təbii ki, 70-dən azdırsa, mühazirə və seminarları ənənəvi qaydada təşkil etmək olar. Ən ciddi məsələlərdən biri də yaşı 65-dən yuxarı olan şəxslərin tədris prosesində iştirakı təhlükəli məqamdır”.

*Mütəxəssis vurğulayıb ki, təhsil müəssisələrində ciddi şəkildə dezinfeksiya işləri aparılmalıdır:*

”Vaksin olunmuşlarla olmamış şəxslər eyni məkanda olmamalıdır. Ona görə də 1-ci kurslar səhər növbəsi, vaksin olunmuş 2, 3, 4-cü kurslar isə günün ikinci yarısında dərsdə iştirak edərlərsə, təmas azalar və bu da yoluxma problemini aradan qaldırmış olar”.

**Sücayət Mehti**

# Nazir ağıllı və diplomatik gediş etdi



## “Artıq Rusiya ilə də xarici siyasət sahəsində müəyyən problemlərimiz yaranıb”

**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 76-cı sessiyasında iştirakı çərçivəsində Finlandiyanın Xarici işlər naziri Pekka Olavi Haavisto ilə görüşüb.**

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, görüşdə ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərinin inkişaf səviyyəsindən məmnunluq ifadə edilib və bu əlaqələrin genişləndirilməsi perspektivləri barəsində fikir mübadiləsi aparılıb. Hazırda Azərbaycan və Finlandiya arasında bütün səviyyələrdə qarşılıqlı anlaşmanın mövcud olduğu vurğulanıb.

Görüş zamanı ikitərəfli əməkdaşlıq gündəliyinin müxtəlif aspektləri, o cümlədən, siyasi, iqtisadi, humanitar, təhsil, kənd təsərrüfatı, yüksək texnologiyalar, sərmayə qoyuluşu, mədəni sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinə dair, eləcə də regional təhlükəsizlik məsələləri, üçtərəfli bəyanatdan irəli gələn müddəaların həyata keçirilməsi və etimadın qurulması tədbirlərinin reallaşması üzrə fikir mübadiləsi aparılıb.

*C.Bayramovun görüş zamanı mühüm bəyanatla çıxış etdiyini vurğulayan siyasi elmlər doktoru, professor, politoloq Cümşüd Nuriyev ”Şərq”ə söyləyib ki, XİN başçısı Azərbaycanın qonşu dövlətlərlə ikitərəfli münasibətlərin yaxşılaşdırılmasına hazır olduğunu qeyd edib:*

”Məlumdur ki, yalnız Ermənistanla problemimiz yoxdur. Son vaxtlar eyni zamanda İran və Rusiya ilə bağlı bəzi xoşagəlməz durumlar yaşanır. Çünki Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova artıq Türkiyəni hədələyir. Türkiyəyə qarşı atılan addımlar isə Azərbaycana qarşıdır. Ona görə də artıq Rusiya ilə də xarici siyasət sahəsində müəyyən problemlərimiz yaranıb. Bütün bunların fonunda nazirimizin belə bəyanat səsləndirməsi Azərbaycanın sülhpərvər siyasət yürütməsinə dəlalət edir. Belə bəyanatın verilməsinin özü çox ağıllı və diplomatik bir gedişdir”.

**Yeganə Bayramova**

# Ermənilərdən hər təxribatı gözləmək olar

## Sentyabrın 27-də ehtimallara hazır olmalıyıq

**İkinci Qarabağ müharibəsinin ilk ildönümünə bir neçə gün qalıb. Müxtəlif analitiklərin fikrincə, sentyabın 27-dək ermənilərin təxribatı gözlənilləndir.**

Son dövrlər xüsusilə İranın proseslərə müdaxiləsi fonunda baş verənlər belə bir ehtimalı istisna etmir. Amma İrəvan onu da başa düşməlidir ki, revanşist addım onun sonu ola bilər.

**Ermənistanın potensial təxribatlarına dair ”Şərq”ə danışan hərbi ekspert İbrahim Rüstəmlinin sözlərinə görə, bu, tam mümkündür:** ”Ötən otuz il daim erməni təxribatları olub. Bu, əlbəttə, xaricdən idarə olunur. Belə addımlar üçün milyardlarla pul xərclənir. Deyirlər ki, xarakter talehdir. Ermənilərin xarakteri dəyişməyəcək, daim belə davam edəcək. Qədim romalıların fikrincə, qullar ”danışan alətdirlər”. Ermənilər də başqalarının ”danışan alətidir”. Ermənistan hazırda idarəolunmaz vəziyyətdədir. Ölkədə xaos hökm sürür. Və ən böyük təhlükəni xaos olan ölkələrdən gözləmək lazımdır. İkinci bir tərəfdən, beynəlxalq terrorun ən aydın nümunələri məhz Ermənistana məxsusdur. Bu mənada təxribat ehtimalı var. Təsadüfi deyil ki, Prezident İlham Əliyev çıxışlarının birində XXII əsrin də müharibəsinə hazır olmalı olduğumuzu söyləmişdi”.

**Kənan**

# Kredit faizləri yüksələcək

## Bu siyasət inflyasiyanın qarşısını almaq üçün istifadə edilir

**Məlum olduğu kimi, sentyabrın 17-də son 5 il ərzində ilk dəfə Mərkəzi Bank tərəfindən faiz artımına gedilib.**

Mərkəzi Bankın İdarə Heyəti uçot dərəcəsinin 6,25 faizdən 6,5 faizə qaldırılmasına qərar verib. Bununla da, dəhlizin aşağı həddinin 5,75 faizdən 6 faizə, yuxarı həddinin isə 6,75 faizdən 7 faizə yüksəldilməsi təsdiq edilib. Mərkəzi Bank qısamüddətli maliyyə vəsaitlərinin dəyərini müəyyənləşdirməklə iqtisadiyyatda daha uzunmüddətli faiz dərəcələrinin formalaşmasına təsir göstərir.

Məhz bu faizlərlə əhaliyə və iqtisadiyyata kredit verilir.

İqtisadçı-ekspert Şahin Elxanoğlu bunun bankların kredit və əmanət faizlərinə təsirini ”Şərq”ə şərh edib:

”Uçot dərəcəsi ölkədəki iqtisadi vəziyyəti xarakterizə edir. İnflyasiya səviyyəsi yüksəldiyi zaman Mərkəzi Bank uçot dərəcəsini yüksəldir. Belə olan halda kredit faizləri yüksəlir. Bu siyasət inflyasiyanın qarşısını almaq üçün istifadə edilir. Kredit almaq insanlara sərf etmir və dövlət put kütləsini balanslaşdırır”.

**Kənan**



# "Türkiyə Rusiya və Qərb arasında körpüdür"

## Turab Rzayev: “Onlar ən kritik məqamda bir-birlərinə güzəştə getməyi bacarırlar. Çox güman, yenə ”dil tapacaqlar”

**Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğanın görüşünə hazırlıq gedir. Bu barədə Kremlin mətbuat katibi Dmitri Peskov açıqlama verib. Peskov bildirib ki, Putinlə danışıqlar üçün Ərdoğanın Rusiyaya səfərinin geniş gündəliyi hazırlanır.**

Rusiya Prezidenti Vladimir Putin və onun türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan ikitərəfli münasibətləri və Suriya problemini müzakirə etməyi planlaşdırırlar: ”Ərdoğanın Rusiyaya işgüzar səfərinə hazırlıq gedir. Gündəlikdə olan məsələlər genişdir, ikitərəfli münasibətlər çoxplanlıdır, prezidentlər üçün hər zaman bu kontekstdə danışmağa mövzu var. Lakin, əlbəttə ki, Suriya və digər regional münaqişələr də müzakirə olunacaq” - deyə, Peskov vurğulayıb. Görüşün sentyabrın 29-da baş tutacağı deyilib.

*”Şərq” olaraq siyasi analitik Turab Rzayevlə görüş barədə müzakirə apardıq:*

**- Sizcə, müzakirələrdə masaya nələr çıxarılacaq?**

- Əvvəla onu deyim ki, Türkiyə-Rusiya münasibətləri birmənalı deyil. Tərəflər arasında kəskin rəqabət var. Liderlərin axırıncı görüşü altı saatdan çox çəkmişdi. Bu isə Qarabağ müharibəsindən sonra ilk tet-a-tet müzakirə olacaq. Suriya, Liviya, Şərqi Aralıq dənizi ilə yanaşı, Qarabağ məsələsi barədə də fikir mübadiləsi aparılacaq. Və çox güman ki, yeni razılaşmalar olacaq. Eyni zamanda Moskva və Ankaranın fərqli maraqları olduğunu nəzərə almalıyıq. Amma onlar Qərbin maraqlarını da nəzərə alırlar. Qərb Rusiya və İranın Çinlə çox yaxınlaşmasını istəmir. Bunu isə həm Ərdoğan, həm də Putin yaxşı anlayır. Ümumiyyətlə, Türkiyə Rusiya və Qərb arasında körpüdür.

**- Əgər Ankara ilə Moskva ”mehriban düşməndirlərsə”, görüşdən sonra tərəflər arasındakı münasibətlərdə hansı dəyişiklik olacaq?**

- Bəzi ölkələr bu dövlətləri qarşı-qarşıya qoymaq istəyirlər. Amma bu, qonşularımızın heç birinə sərf etmir. Odur ki, onlar ən kritik məqamda bir-birlərinə güzəştə getməyi bacarırlar. Çox güman, yenə ”dil tapacaqlar”. Türkiyə Rusiyanı, hətta mümkün olarsa, İranı Qərb blokunda saxlamaq istəyir.

**- Bu günlərdə Ərdoğan BMT Baş Assembleyasının çıxışında Krım məsələsini gündəmə gətirmişdi. Ola bilərmi ki, Putinlə görüşdə Ukraynanın ərazi bütövlüyü problemi birdəfəlik həllini tapsın?**

- İnanmıram. Putin hakimiyyətdə olduğu müddətcə buna imkan verməz. Çünki o, bunu xalqına böyük töhfə kimi qiymətləndirir. Hətta Rusiya başçısı Krım məsələsinin artıq geridə qaldığını və yalnız Donbasın müzakirə oluna biləcəyini söyləyir.

**- Ermənistan Baş naziri Nikol Paşinyan Ankara ilə yaxınlaşmaq barədə bəyanatlar verib. Bunun səfər öncəsi Putinin təlimatı olması ehtimalı nə qədər realdır?**

- Məncə, bu, daha çox Paşinyanın əlavə manevr yeri axtarması kimi qiymətləndirilməlidir. Çünki İrəvan Qərblə nə qədər yaxınlaşmaq istəsə də, manevr imkanları çox azdır. Əlbəttə, müharibədən sonra Bakı ilə yaxınlaşa bilməz. Ona görə də Ankara ilə yaxınlaşmağa çalışaraq özünə alternativ axtarır.

**Kənan Novruzov**

# Nəyimizə lazımdır İranın kartofu…

## Azərbaycan öz daxili tələbatını özü ödəməlidir



**"Gədəbəy, Tovuz, Cəlilabad və digər bölgələrimizdə kifayət qədər normal kartof məhsulu yetişdirə bilərik"**

**Həyata keçirilən nəzarət tədbirləri çərçivəsində İran İslam Respublikasından ”Afshin Ghoje Biglo Agha Mohammad Biglo” və ”Saleh Ehsas Gojeh Bagloo” adlı təsərrüfat subyektləri tərəfindən ölkəmizə ixrac edilən kartof məhsulunda karantin tətbiq edilən kartof güvəsi (Phthorimaea operculella) aşkar edilib.**

Bu barədə Qida Təhlükəsizliyi Agentliyindən məlumat verilib. Məlumata görə, bununla əlaqədar agentlik İran tərəfinə notifikasiya verib, adıçəkilən subyektlər tərəfindən Azərbaycana kartof ixracının dayandırılması və baş verən uyğunsuzluqların araşdırılaraq nəticəsi barədə məlumat verilməsinin zəruriliyi bildirilib.

**Qonşu ölkələrlə, əsas da ticarət partnyorlarıyla münasibətlərin gərginləşməsində heç bir fayda görmədiyini deyən iqtisadçı-alim Nazim Bəydəmirli ”Şərq”ə açıqlamasında qeyd edib ki, əgər iki ölkənin müvafiq karantin qurumları qarşılıqlı olaraq verilən sənədləri tanıyırlarsa, o zaman belə addımlar atılmamalıdır. Ekspert qeyd edib ki, Rusiya kimi dövlətlər, adətən bundan ticarət partnyorlarına qarşı siyasi təzyiq aləti kimi istifadə edir:** ”Bu cür hadisələr hər zaman yaşanır, yəni birinci dəfə deyil. Ona görə də Rusya sivil dünya üçün normal dövlət kimi qəbul olunmur. Düzdür, İran qonşu ölkələrlə ticarət əlaqələrinin gücləndirilməsində maraqlıdır. Təbii ki, obyektiv olaraq məhsulda hər hansı bir zərərvericilər aşkarlanıbsa, o zaman bu, başadüşülən məsələdir. Ancaq əgər bu, hər hansı bir məqsədli xarakter daşıyırsa, o zaman mənim buna bir iqtisadçı kimi münasibətim mənfidir. Hesab edirəm ki, İran da öz növbəsində bizim ticarətçilərə, şirkətlərə hər hansı bir məhdudiyyət qoymamalıdır. Onu da qeyd edim ki, hökumətlərarası komissiya var. Hesab edirəm ki, belə məsələlərdə onlar tez bir zamanda araşdırma aparmalı və müvafiq qurumlara bu cür halların gələcəkdə təkrar olunmamasını tövsiyə etməlidirlər ki, bundan ayrı-ayrı sahibkarlar ziyan çəkməsinlər. Bu baxımdan hesab edirəm ki, biz suveren müstəqil dövlət olaraq ərzaq təhlükəsizliyimizlə bağlı müstəqil addım ata bilərik. Ancaq bu, qarşı tərəfdə qıcıq doğurmamalıdır və anlaşılmalıdır. Əgər burda hər hansı bir subyektiv amillər varsa, bu subyektv amillərə səbəb olan insanlar cəzalandırılmalıdır”.

*N.Bəydəmirli əlavə edib ki, müxtəlif qurumlar hər hansı bir sahibkarı sıradan çıxartmaq üçün də belə addımlar ata bilir:* ”Biz bunun dəfələrlə şahidi olmuşuq. Azərbaycan öz daxili tələbatını ilk növbədə özü ödəməyə çalışmalıdır. Biz illər boyu Belarusdan, Rusiyadan və digər yerlərdən kartof məhsulu almışıq. Halbuki, Gədəbəy, Tovuz, Cəlilabad və digər bölgələrimizdə kifayət qədər normal kartof məhsulu yetişdirə bilərik. Ancaq obyektiv səbəblərdən pay torpaqları almış vətəndaşlarımız iqtisadi miqrasiya ediblər. Kəndlərdən, rayonlardan Bakıya və digər bölgələrə köç ediblər. Yəni soydaşlarımız müxtəlif səbəblərdən torpaqlarını əkmir və buna görə də ölkədə adi kartof məhsulu da idxal olunur”.

**Aynurə Pənahqızı**

# Tələbələr kirayə evlərin qiymətinə yaxın düşə bilmirlər

## Problemin açarı elə bir qurumun əlindədir ki, həll məsələsi ümidsiz görünür

**Kirayə evlərin bahalaşacağı gözlənilən idi. Adət etdiyimiz mənzərədir çünki. Yeni tədris ili başlamamışdan evlərin qiyməti qalxır. Hansısa bölgədən paytaxta elm ardınca gələcək olanlar pullarını əvvəlcədən hazırlayır. Bilirlər ki, kirəçilər qiyməti qaldırıb. Bununla kirayə ev bazarını ”boğmaq”, suçlamaq məqsədi güdmürük. Ümumi bahalaşma varsa, evlərin, o cümlədən kirayə mənzillərin də qiyməti qalxacaq və bu, tamamilə təbiidir.**

Daşınmaz əmlaka sahib olanlar da pandemiyada müştəri sarıdan korluq çəkib, qazanc əldə edə bilməyiblər. Və indi onların əllərinə düşən fürsəti dəyərləndirməsi qədər də qanunauyğun bir hal yoxdur. Məsələ kirayə mənzil bazarının başlı-başına buraxılmasıdır. Bundan ən böyük əziyyət çəkən əlbəttə ki, tələbələrdir. Tələbənin aldığı təqaüdü kirayə haqqı, gündəlik xərclərlə tutuşduranda bu pulun bir işə yaramadığı məlum olur. Bu vəziyyətdə tələbə ailəsindən xərclik istəyir. Və ailəsi də maddi sıxıntıya düşür.

”MBA Group” konsaltinq şirkətinin direktoru, əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimov bildirib ki, kirayə mənzillərin 1 kvadrat metrinin orta qiyməti 8,33 manatdan 8,36 manata yüksəlib. Ekspert vurğulayıb ki, ali təhsil müəssisələrində dərslərin açılması da kirayə mənzillərin qiymətinə təsir edib. Hətta tələbələrin bir hissəsi dərslərin bərpa olunması elan olunmazdan əvvəl kirayə mənzillər tutmuşdular. Əmlak üzrə ekspert bildirib ki, ümumi şəhər üzrə kirayə mənzillərin orta qiyməti 775 manat, o cümlədən 1 otaqlı mənzil 350 manat, 2 otaqlı mənzil 449 manat, 3 otaqlı mənzil 542 manat, 4 otaqlı mənzil 869, 5 otaqlı mənzil isə 1156 manat olub.

Kirayə mənzil bazarını, məhz tələbələrin xərclərini yüngülləşdirmək baxımından nəzarət altına almaq mümkündür?

**İqtisadçı Fuad İbrahimov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, bu məsələ kompleks həll olunmalıdır:**

- Vergi ödəyicilərinin vergiyə cəlb olunması ibtidai səviyyədədir. Vahid nəzarət mexanizmi yoxdur. Kirayə mənzil bazarına o zaman nəzarət edilə bilər ki, daşınmaz əmlak sahibləri vergiyə cəlb olunsun, kirayə haqqından dövlətə vergi ödənsin. Amma bu pullar ortada nəzarətsiz dövr edir. Kirayə qiymətlərini də bazar müəyyənləşdirir. Tələbat artdıqca qiymət də artır. Pandemiya dövründə kirayə mənzillər ”su qiyməti”nə idi. Əyani tədris bərpa olunur deyə, qiymətlər də qalxdı.

> Ali məktəblərin yataqxana strukturu bərpa olunmalıdır. Tələbələr də rahat şəkildə yataqxanada qalmalı, dərsləri ilə məşğul olmalıdırlar



Problemin həlli üçün nə tələb olunur? F.İbrahimov qeyd etdi ki, problemin açarı elə bir qurumun əlindədir ki, həll məsələsi ümidsiz görünür:

> **“Təhsil Nazirliyi 30-40 ilin müəllimlərini imtahana çəkməyə sərf etdiyi enerjini yataqxana probleminin həllinə sərf etsə, daha uğurlu nəticə əldə edər”**

- Bu problemlə Təhsil Nazirliyi məşğul olmalıdır. Nazirlik hökumət qarşısında konkret layihələrlə çıxış etməlidir, hökuməti bu işə təşviq etməlidir. Ali məktəblərin yataqxana strukturu bərpa olunmalıdır. Tələbələr də rahat şəkildə yataqxanada qalmalı, dərsləri ilə məşğul olmalıdırlar. Tələbə gedib hardasa kirayə qalır, hamının imkanı yoxdur ki, yaxşı şəraitli, komfortlu mənzildə qalsın. Çox zaman təmirsiz, ucuz mənzilləri kirayələyirlər. Bu da tələbə üçün əlavə sosial yük deməkdir. Tələbə işığın, qazın, suyun dərdini çəksin, yoxsa fikrini dərslərinə cəmləsin? Yataqxana sistemi bərpa olunsa, tələbələrin yükü azalacaq. Mümkündür ki, yataqxanalara görə minimal ödəniş təyin edilsin. Bu məbləğdən də yenə yataqxananın ehtiyacları, kommunal xərclər üçün istifadə edilsin. Hər şey şəffaf olmalıdır. Məlum məsələdir, tələbə yataqxanalarında uzun müddət məcburi köçkünlər məskunlaşdı və bu sistem dağıldı. Lakin son illərdə yataqxana sistemini bərpa edən ali məktəblər də var. Məsələn, Moskva Dövlət Universitetinin Bakı filialı. Digər ali məktəblər də səy göstərsələr, bu sistemi bərpa edə bilər. Yataqxana tələbəliyin canı-qanıdı. Tələbələrin bir məkanda yerləşməsi, bir-biriylə ünsiyyətdə olması tədrisə də müsbət təsir edir, tələbələrin özünə də.

**F.İbrahimov qeyd etdi ki, hazırda hökumətin əlində kifayət qədər imkanlar var:**

- Qısa müddətdə olimpiya stadionu, beynəlxalq səviyyəli aeroportlar tikilir. Tikinti indiki dövrdə asan, tez başa gələn işə çevrilib. Yataqxana tikmək niyə çətin olsun ki. Sadəcə, Təhsil Nazirliyi 30-40 ilin müəllimlərini imtahana çəkməyə sərf etdiyi enerjini yataqxana probleminin həllinə sərf etsə, daha uğurlu nəticə əldə edər.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi**

**Nəmənd Rüstəmov:**
"Qurşaqdan aşağı məsələlərə maraq azalandan sonra texnoloji vasitələrdən istifadəyə də ehtiyac qalmayacaq"

**Osman Gündüz:**
"Hansı ölkədə qlobal sosial media resurslarının rəsmi nümayəndəlikləri açılıbsa, həmin ölkələrdə sosial medianın fəaliyyəti ilə bağlı çevik, effektiv tənzimləmə mexanizmləri nəzərdə tutulur"

# İşlək, hamını qane edəcək bir mexanizm tapmaq mümkün deyil

## Sosial şəbəkələrin qanunla tənzimlənməsini həyata keçirmək üçün heç bir uğurlu model yoxdur



**Sosial şəbəkələr günümüzün reallığına, həyatımızın tərkib hissəsinə, ayrılmaz parçasına çevrilib. İstəsək də, istəməsək də, artıq bu virtual məkanın sakinləri, vətəndaşlarıyıq. Ümumən sosial şəbəkələrdən daha faydalı fəaliyyət üçün istifadə olunsa da, bu platformanın neqativ tərəfləri də mövcuddur.**

Bəzən sosial şəbəkə istifadəçiləri bu məkanı kimlərəsə, hətta dövlətə, millətə, dəyərlərə qarşı savaş meydanına çevirir. Söyüş, təhqir, böhtan, şantaj vasitəsinə döndərir, sosial şəbəkədə əməlli-başlı terror əsdirir. Əlbəttə, bunlar çox narahatedici və təhlükəli tendensiyadır. Həmçinin, sosial şəbəkələr vasitəsilə saxta məlumatlar yayılaraq informasiyaların manipulyasiya edilməsi, ictimai rəyin məqsədli şəkildə dəyişdirilməsi son zamanlar daha kritik hal almaqdadır. "Digital in 2019.Azerbaijan" qlobal reytinqinin məlumatına görə, Azərbaycanda ötən il 3,10 milyon nəfər aktiv sosial media istifadəçisi olub. Feysbuk sosial şəbəkə istifadəçilərinin sayının isə 1.8 milyon olduğu bildirilmişdi. Bu il həmin göstəricilərin xeyli artması istisna edilmir.

O baxımdan sosial şəbəkələrə nəzarətin tətbiq edilməsi, təhlükəli fəaliyyətin cilovlanması günün əsas tələblərindəndir. Məlumat üçün deyək ki, Almaniyada sosial şəbəkələrlə bağlı müzakirələr, sosial şəbəkə operatorları qarşısında öhdəlik qoyulması məsələsi hələ 2017-ci ildə başlamışdı. O zaman "Sosial şəbəkənin mühafizəsi haqqında qanun" qəbul edilmişdi. Bu, feysbukla Almaniya hökuməti arasında 14 ay davam edən uzun müzakirələrdən, danışıqlardan sonra mümkün olmuşdu. Ancaq vurğulanmışdı ki, bu proses sadəcə qanun qəbul etməkdən ibarət deyil. Qanunu işləyib, yazmaq asandır. Qanun qədər vacib olan onun işləkliyidir.

Verilən məlumata görə, Milli Məclisin payız sessiyasında da sosial şəbəkələrin mövcud durumu müzakirə olunacaq və yeni qanun layihəsi barədə təkliflər veriləcək.

**Mövcud problemlə bağlı "Şərq"ə fikirlərini bölüşən BDU-nun Jurnalistika fakültəsinin müəllimi Nəmənd Rüstəmov deyib ki, bütün məsələləri qanunvericiliklə tənzimləmək hər zaman uğurlu nəticələnmir. Ekspert qeyd edib ki, hər hansı məsələylə bağlı qanun qəbul edərkən əvvəlki təcrübələr nəzərə alınır:** "Qanunla sosial şəbəkə arasında ziddiyyətlər var. Bununla bağlı ciddi nümunələr mövcuddur. Ölkəmizdən xaricə gedərək miqrant kimi yaşayan bəzi şəxslər çox uğursuz və bəzən də şərəfsiz metodlarla mübarizə aparırlar. Belə məqamlar vətəndaş kimi hamımızı narahat edir. Amma təəssüflər olsun ki, sosial şəbəkələrin qanunla tənzimlənməsini həyata keçirmək üçün heç bir uğurlu model yoxdur. Yeganə Çin modelidir ki, onlar da bəzi sosial şəbəkələri kökündən qadağan edərək özlərinin yaratdıqları tiktoku meydana çıxarıblar. Əslində, bu, böyük fövqəlgüclərin arasında mübarizə üsuludur. Dünya elə həddə gəlib çatıb ki, sosial şəbəkələr zamanın vazkeçilməz tələbinə çevrilib. Azərbaycanda sürətlə internetləşmə gedir. Şəxsən mənim bir neçə telefonum var, hamısı da internetə qoşuludur. Buna rəğmən, özüm dəfələrlə sosial şəbəkələrlə bağlı ciddi problemlərlə üz-üzə qalmışam. Ona görə də çarələr üzərində işləmək cəhdləri başadüşüləndir. Ancaq mən qismən pessimistəm. Düşünmürəm ki, çox işlək və hamını qane edəcək bir mexanizmi tapmaq mümkündür".

N.Rüstəmov qeyd edib ki, bəzən cəmiyyəti narahat edən məqamlarla bağlı prosesləri zamanın axarına buraxmaq lazımdır: "Bir məsələyə lazım olandan çox diqqət göstərildikdə süni ajiotaj yaranır. Mənasız, yersiz müzakirələrə səbəb olur. Ölkəmizdə hüquqi sistem, qanunvericilik var. Hər kəs informasiya əldə etmək hüququna sahibdir. Eyni zamanda şəxsiyyətin toxunulmazlığı, şərəf və ləyaqətin alçaldılması, şər-böhtanla bağlı qanunvericilikdə müvafiq müddəalar mövcuddur. İstənilən hadisə hüquqi müstəvidə araşdırıla və cinayət törətmiş şəxslər cəzalandırıla bilər. Burada belə bir məqam da var ki, bənzər əməllər məşhur "trollar" vasitəsi ilə həyata keçirilir. Onların əksəriyyətini isə aşkarlamaq çətin olur. Amma sadəcə, internetdən istifadəni tam ciddiyyətlə rəsmi sənədləşmə üzərindən həyata keçirmək, yaşı 18-dən yuxarı olan şəxslərin sosial şəbəkələrə girişini təmin etmək mümkündür. Müəyyən məqamları da nəzərə almaq lazımdır. 44 günlük müharibə dövründə internetə giriş qapadıldı. Amma demək olar ki, hamı "VPN" proqramları vasitəsi ilə zəif də olsa internetə giriş əldə etdi. Məsələni texniki yöndən tənzimləmək üçün dövlət tərəfindən əlavə xüsusi cihazlar alına bilər. Lakin bu, zaman məsələsidir və bir müddət gözləmək lazımdır. Qurşaqdan aşağı məsələlərə maraq azalandan sonra texnoloji vasitələrdən istifadəyə də ehtiyac qalmayacaq".

**Azərbaycan İnternet Forumunun prezidenti, "Multimedia" İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz də "Şərq"ə açıqlamasında bildirib ki, feysbuk, tvitter, instaqram kimi qlobal sosial media resursları bizə məxsus deyil. Ekspert bildirib ki, bütün şirkətlərin mərkəzləri xarici ölkələrdə yerləşib:** "Həmin mərkəzlər xaricdə olduğuna görə, onların fəaliyyətinin hansısa yolla tənzimlənməsində ciddi problemlər üzə çıxır. Hansı ölkədə qlobal sosial media resurslarının rəsmi nümayəndəlikləri açılıbsa, həmin ölkələrdə sosial medianın fəaliyyəti ilə bağlı çevik, effektiv tənzimləmə mexanizmləri nəzərdə tutulur. Məsələn, Türkiyə son illərdə bunu etməyə nail oldu. Amma resursun özünün nümayəndəliyi olmadan hansısa tənzimləmə problem yaradır, çünki təsir imkanları olmur. Bəs belə halda nə etməliyik? Düşünürəm ki, sosial media ilə bağlı ayrı-ayrı qanunvericilik aktlarında müəyyən dəyişiklik etmək mümkündür. Məsələn, bizdə "KİV haqqında", "İnformasiya əldə olunması" haqqında, o cümlədən "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunlar var. Bu qanunların təkmilləşdirilməsi, sosial şəbəkələrlə bağlı məqamların nəzərdə tutulması daha məqsədəuyğun olardı. Rəsmi nümayəndəliklər olmadığı təqdirdə ayrıca qanun layihəsi hazırlamağı faydalı saymıram. Bununla nəyəsə nail olmaq mümkünsüzdür".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Qara bağda can verib Qarabağı dirçəldənlər…

**Əvvəllər elə bilirdim ki, dünyadakı ən böyük sevgi ananın övladına olan sevgisidir. Amma mən hər şeyi gözə alıb balasını qürurla, sevgi ilə cəbhəyə yola salan, yeri gəlsə, özləri də getməyə, ölməyə, öldürməyə hazır olan Azərbaycan analarını görəndə anladım ki, bu dünyada Vətən sevgisindən ən ali, ən müqəddəs heç nə yoxdur.**

***Vətən mənə oğul desə, nə dərdim?***
***Mamır olub qayasında bitərdim.***

Uşaqlığımdan, özümü dərk edəndən bəri qəlbimə, düşüncələrimə hakim kəsilən misralar...Məncə, vətən öz oğullarını artıq yaxşı tanıdı, onları öz qucağına aldı. Məhz onları seçdi, onları göylərə, ən uca zirvələrə qaldırdı. Hər kəsin qəlbində onlara yer ayırdı, sonsuz məqama, əbədiyyətə göndərdi.

Vətən təkcə yurd deyil, müəyyən sərhədləri olan coğrafi məkan deyil. Vətən qanla yoğrulmuş torpaqdır. Vətən bizə tarixdən əmanətdir. Vətən mənəm, Vətən sənsən, Vətən bizik. Onun dününə, bu gününə, sabahına hamımız məsuliyyətliyik. O, müqəddəsdir. O, köhnəlmir, dəyişmir, əbədi və əzəlidir. Vətən - bütöv Azərbaycandır! Bizim tariximiz zəngindir, şərəflidir, qürurvericidir.

Hər şey bir gün mütləq aid olduğuna qovuşur. Azərbaycanın əzəli torpağı olan Qarabağı bizdən ayırdıqlarını düşündülər, yanıldılar. Hər birimiz bir gün o böyük günün, o tarixi anların yetişəcəyini bilirdik, buna bütün qəlbimizlə inanırdıq.

Bəli, 27 sentyabr günü... Bu gün, o gün idi. Nəhayət ki, zaman gəlmişdi, haqq-ədalət bərpa olunmalı idi. Həsrətin bitməsi üçün elə ilk addım bu tarixdə atıldı. Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsi başlandı. 44 gün çəkdi zəfər yolumuz...

"Qarabağ bizimdir, Qarabağ Azərbaycandır" deyə hayqıraraq çıxdıq bu yola. Bir yumruq olduq - dəmir bir yumruq. Elə bir birlik olduq ki, heç bir qüvvə onu parçalaya bilmədi. Çox cəhd etdilər, çox çalışdılar bu birliyə zərbə vurmaq üçün. Amma heç bir təxribat, heç bir vəhşilik bizim əzmimizi, iradəmizi sarsıda bilmədi. Ömrümüzdə yaşaya biləcəyimiz ən qürurlu, ən şərəfli 44 günü yaşadıq. Ən sevincli, bir o qədər də ağrılı-acılı.

Savaşın ilk günündən yüzlərlə vətənpərvər oğullar könüllü olaraq cəbhəyə getmək üçün müraciətlər etdi. Həmin günlərdə sosial şəbəkələrdə o gənclərin cəbhəyə yola düşmə anları ilə bağlı çoxlu sayda videolar paylaşılırdı.

O paylaşılan videoların birində rastlaşdığım bir görüntü var idi, avtobusun



içində olan könüllü igidlərdən biri pəncərədən boylanaraq anasına "ağlayıb eləmirsən ha, ağlasan məndən incimə" tapşırığını verirdi. O gündən bu günə sözümün tam səmimi formasında hələ bircə səhər, bircə gün belə olmayıb ki, mən o şəhidi xatırlamayım, o səs qulaqlarımda səslənməsin.

Sonralar barəsində xeyli məlumatlar tapıb yaxından tanımış oldum igid qəhrəmanımızı, video süjetləri izlədim, ailəsinin söhbətlərinə qulaq asdım. Sözügedən şəhid Vüsal Allahverdiyev idi.

Onu məncə, çoxları elə anasına verdiyi o tapşırığı ilə tanıdı. Qubadlıda doğulmuş, 5 yaşına kimi orada böyümüşdü. Vətən sevdalı, türk sevdalı, bayraq sevdalı cəsur qəhrəman idi Vüsal. Hərb sahəsi ilə yaxından-uzaqdan əlaqəsi yox idi, özünəməxsus işi, əhatəsi, dünyası var idi. Zəhməti ilə karyerasında uğurlu addımlar atmışdı, ailənin tək oğlu idi.

Mən sonralar başa düşdüm ki, o, bu dünyanın insanı olmadığını gözəl bilirdi. Sanki doğma torpağı düşmən əlinə keçəndən sonra artıq bu həyatdakı mövqeyini, yolunu çoxdan cızmışdı özünə Vüsal. Sosial şəbəkələrdəki səhifələrində mütəmadi olaraq vətən niskilli, intiqam hissli paylaşımları, şəhidlik zirvəsinin aliliyi ilə bağlı fikir və düşüncələri və sair ilə həmişə hansı yolun yolçusu olduğunu bürüzə verirdi, zənnimcə. Nəhayət, onun üçün həsrətlə gözlədiyi məqam yetişmişdi. General Polad Həşimovun şəhid olma xəbərini alandan sonra ürəyindəki vətən sevgisi və düşmənə nifrəti daha da güclənmişdi. Tovuz döyüşləri zamanı 1 dəfə, bu müharibə başlayan gündən bəri isə usanmadan 2 dəfə ardıcıl müraciət etmiş, nəhayətində cəbhəyə yola düşən o könüllülər sırasında olmuşdu.

Vətəni sevmək imandandır deyilir. Amma bəzən sevmək az olur, onu qorumaq, lazım gəldikdə isə uğrunda canından keçmək gərəkir. Vüsal Allahverdiyev də təkcə vətəni sevməklə qalmadı, onun dar günündə canını fəda etməyi seçdi. Hər zaman vətən sevgisini bütün sevgilərdən üstün tutan qəhrəmanımız ailənin tək oğlu olmasına baxmayaraq, işindən, gələcəyindən, onu gözləyən bundan sonrakı həyatından imtina edərək, vətənin müdafiəsinə qalxır...

İçi könüllü vətənpərvər gənclərlə dolu olan avtobus tərpənməyə hazırlaşır. Hər birinin gözlərində yenilməzlik, məğrurluq ataşi var. Onları məğlub etmək artıq indidən mümkünsüz kimi görünür. Baxıb düşünürəm, onlar insandır, yoxsa insan cildində mələk? Çünki onlar xalqı, vətəni qorumaq üçün canlarını fəda etmiş, ölümü gözləri önünə almışdılar. Onlar bu xalqın xilaskarı idilər. Avtobus alqışlar altında yerindən tərpənir, irəliləməyə başlayır, pəncərənin yanında əyləşən Vüsalın o anki sevinci gözlərim önündən getmir.

Sanki ən doğma insanının ən xoş günündə iştirak etməyə gedirdi. Öz-özümə hələ də suallar verirəm. Bir qəlbdə bu qədər sevgi, bağlılıq hardan gəlmişdi? İçində zərrə qədər qorxusu olmayan bu ürəklə necə doğulmuşdu?

Hiss olunurdu, fikrinin bir tərəfində anası da ilişib qalmışdı, elə hey dönüb anasına tərəf boylanırdı. Əlləri ilə daha ağlamamasına, sakitləşməsinə işarə edirdi. Oğlunun ürəyini tanıyan ana isə yaxşı bilirdi, bilirdi ki, bu gedişin dönüşü yoxdur... Vüsal da bunu başa düşürdü, amma irəliyə getməli idi, Vətən onu çağırırdı. Beləcə avtobus getdikcə irəliləyir və daha da görünməz olurdu...

Könüllülər üçün təlimlərdə qala bilməyən qəhrəmanımız xüsusi təyinatlılara qoşularaq döyüşlərə qatılır, bir sıra ərazilərin işğaldan azad olunmasında yaxından iştirak edir. Xüsusi qəhrəmanlıq və şücaət göstərir. Döyüş yoldaşları deyir ki, o, artilleriya ataşi nəticəsində deyil, məhz düşmənlə üz-üzə gələrək şəhid olmağı arzu edirdi. Elə belə də olur, Vüsal düşmənlə üz-üzə döyüşdə 4 güllə yarası alaraq cəbhəyə yollanmasından 1 ay sonra, oktyabrın 30-da şəhadətə ucalır...

Bununla da, Vüsal Allahverdiyev kimi minlərlə qəhrəman şəhidlər, qazilər, döyüşçülər, onların sayəsində Azərbaycanın ən şərəfli tarixi yazıldı.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuzun qazandığı qələbə xalqımızın yenilməzliyini bütün dünyaya nümayiş etdirdi. Torpaqlarımızın düşməndən azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda şəhid olmuş Vətən övladları bu müqəddəs savaşın əbədiyyətədək yaşayacaq qəhrəmanları oldu.

Heç şübhəsiz, onlar bizim vuran əlimiz, döyüşən ruhumuz, bu qələbənin ən əsas memarlarıdırlar. Onların şücaəti, dönməzliyi, müzəffəriyidir bizə bu qələbəni yaşadan. Çiynində yaralı əsgəri daşıya-daşıya, isti-soyuq demədən sadəcə irəliyə addımlayan, irəliyə köklənən, öz qanını Vətən torpağı - Qarabağ uğrunda, Vətən torpağında - Qarabağda axıdan bu igidlərdir, sözsüz, bizə bu qürur dolu anları yaşadan. Məhz onlar idilər bir əlində silah, bir əlində bayraq öz sinəsini düşmənə sipər edənlər. Biz isti yuvamızda rahat yataq deyə gecə-gündüz bilməyib, yuxu nədir bilməyib döyüşənlər, yatmayanlar, gələcəkdə körpələrimiz analarını gözüyaşlı qoymasın deyə öz analarını gözü yaşlı qoyanlar.

Məhz onlar idi Qarabağa can verib dirçəldənlər. Məhz onlar idilər öz nəfəslərini kəsərək Qarabağa nəfəs verənlər.

Təxminən 1 həftə öncə ilk dəfə Şuşa torpaqlarına ayaq basanda, Cıdır düzünə qalxanda, acizliyimdənmi, qürurumdanmı, kədərimdənmi bilmədim, amma içimdən ancaq bu sözləri demək keçdi: - Haqqını halal et, Şəhid. Sənin qan olub qarışdığın torpağın üzərində gəzdiyim üçün! Sənin buxar olub sovrulduğun havanı, sənin nəfəsini ciyərlərimə nəfəs deyib çəkdiyim üçün! Öz qanını, canını Qarabağ edib bizə qaytardığın üçün...Ey Vətən oğulları! Ey Azadlıq şərbətini içənlər, siz ölməmisiniz! Şəhidlər ölmürlər axı! Siz əbədisiniz! Siz öz ölümünüzlə öz adınızı tarixdə, bizim qəlbimizdə əbədiləşdirmisiniz. Ölüm başqalarını məhz ayırarkən, sizi bizimlə birləşdirdi - həm də əbədi.

Bəzi yaraların heç vaxt sağalmayacağını, ömür boyu sızıldayacağını bilirəm. Bəzi boşluqların yeri də heç vaxt dolmayacaq. Amma bu xalq ağrısından, acısından belə qürur duyur. Gözlərindən yaş axanda da başı dik dayanır.

Biz anamızın, atamızın övladıyıq, amma onlarla birlikdə hər şeydən öncə Azərbaycanın övladıyıq.

27 sentyabr tarixi bizim ömrümüzə qızıl hərflərlə həkk olundu. Azərbaycanın müzəffər ordusunun erməni ordusuna qarşı həyata keçirdikləri əks-hücum əməliyyatı nəticəsində işğal altında olan torpaqlarımız azad olundu. Hər gün onlarla kəndin, şəhərin azad olunma xəbərini aldıq onların sayəsində. Biz qalib dövlət olduq.

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilməsi qərara alınmışdır. Bu gün mən ilk öncə bu xalqın nümayəndəsi kimi, bu dövlətin vətəndandaşı kimi və 1992-1993-cü illərdə Zəngilan uğrunda döyüşlərdə sağlamlığını itirmiş, Birinci Qarabağ müharibəsi qazisi Kamal Bayramovun qızı kimi artıq alnım açıq, başım dik, daha qürurluyam!!!

Yaşa, var ol, doğma Azərbaycan! Sən xoşbəxt olmağa layiqsən!!!

**Nərmin Gülməmmədova,**
**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin xüsusi notariusu**

*Sözdür həm təzə şey, həm də köhnə şey,*
*Sözdən bəhs edilir zaman-zaman hey.*

**(Nizami Gəncəvi)**

# Nizami yaradıcılığı və sözün qüdrəti

## Şairlər hər yerdə söz ilə hökmranlıq ediblər

**Dünya var olandan bəri söz, kəlam qədər qiymətli, əziz və ürəkləri fəth edən heç bir şey yaranmayıb. Söz haqqında istər Şərqin, istərsə də bütün dünyanın söz ustaları, dahi şəxsiyyətləri qiymətli fikirlər söyləyiblər. Azərbaycanı bütün dünyaya tanıdan dahi söz ustası Nizami də, təbii ki, bu mövzuya biganə qalmayıb. Şair bütün poemalarında, yeri gəldikcə, sözü - kəlamı vəsf edib, onun sehrindən söhbət açıb.**

N.Gəncəvi ilk poeması olan "Sirlər xəzinəsi"ndə "Sözün tərifi" bölməsində yazır ki, bəşəriyyət yarandığı gündən qələmin ilk yazdığı söz-kəlam olub. Söz, dünyanın sirrini açan ilk ən gözəl vasitədir. Ürəyin sirlərini izhar edən sözdür. Kainatın bütün sirləri söz vasitəsi ilə bəyan olunur. Sözün qədir-qiyməti o qədərdir ki, danışmaqla bitməz.

**Dünya yaranan gündən qələmin ilkin sözü**
**Varlıq səhifəsində sözün özüdür, özü.**

**Açılanda varlığın sirli pərdəsi əzəl,**
**Söz oldu bu cahanda cilvələnən ilk gözəl.**

**Ürək sözə dil açdı, dedi ki: "Ver mənə can",**
**Yoxsa, yolmu tapardı bu cansız bədənə can?!**

**Yer üzünə incini sözlə saçıbdır qələm,**
**Kainatın gözünü sözlə açıbdır qələm.**

**Dünyaya sözdür şərəf, gör ki, nədir qiyməti,**
**Danışmaqla, yazmaqla itməz qədir-qiyməti.**

**Nizami, sözü insan düşüncələrini ən uzaq mənzillərə belə çatdıran quşa bənzədir.**
**Düşüncələr, xəyallar, min-min əsər bitirər,**
**Onu sözün quşları mənzilinə yetirər.**

Başqa bir yerdə şair qeyd edir ki, əgər hökmdarların tacı qızıldan, gümüşdəndirsə, arif adamların, söz sahiblərinin tacı isə sözdəndir. Şairlər hər yerdə söz ilə hökmranlıq ediblər:

**Tacidar tac sahibi sözü sanıb cahanda,**
**Ariflər söz qədrini sözlə anıb cahanda.**

**Gah dillərdə təranə, əllərdə ələmdi o.**
**Gah qələmlə süslənən füsunkar sənəmdi o.**

**Sanma bayraq söz qədər zəfər çalar hər yanda,**




**Qələm öz qüdrətinə ölkə alar hər yanda.**

Şairə görə, söz sahibləri məhz sözün "ölüsü" olduğu üçün söz də onları həmişə diri saxlayır. Kainatdan gözəl olan sözün rəngi - boyasını vəsf etmək üçün dil acizdir. Sözü dünyanın inciləri ilə müqayisə edən şair sözü onlardan üstün tutur və onu dünyanın naxışı adlandırır; o, qiymətli sözün hakim kimi hər yerdə başda oturduğunu diqqətə çatdırır:

**Biz ki, söz aşiqiyik, söz sevənin biriyik,**
**Onun ölüsüyük ki, onunla da diriyik.**

**Yer üzündə tapılmaz sözün rəngi-boyası,**
**Dilə gəlməz tərifi - dili aciz qoyası.**

**Şairi şah elədi şah əsərləri sözlə,**
**Möhürlədi məsləki məslək ərləri sözlə.**

**Sözü - qızıl yatağı altunla tutdu qoşa,**
**Dedi söz sərrafına: "De, hansı gəlir xoşa?**

**Səncə köhnə qızılmı, təzə sözmü yaxşıdır?"**
**Söz sərrafı söylədi: "Söz dünyanın naxşıdır!"**

**Söz hər yerdə hakimdi, hamıdan baş da odur,**
**Dünyanın sərvətidir, inci qaş-daş da odur.**

Nizami özünün ikinci poeması "Xosrov və Şirin"də də sözün sehrindən bəhs edib. Şair qeyd edir ki, boş və mənasız sözləri heç kəs dinləmir və söz ustası çalışmalıdır ki, yüz sözlə bir mən yox, bir sözlə yüz məna ifadə etsin. Şairə görə, su həddini aşanda hər şeyi qərq etdiyi kimi, bədəndə qan çox olanda neştərlə alındığı kimi, çox söz də sahibini hörmətdən salar. Az danışan az səhv etdiyi kimi, çox danışan da çox qüsur buraxar.

**Boş, mənasız sözlər kimə gərəkdir?**
**Kim belə sözləri dinləyəcəkdir?**

**Sözündə çoxluğa qoyma yer olsun,**
**Birin yüz olmasın, yüzün bir olsun.**

**Su artıb həddini aşarsa əgər,**
**İçəni doydurmaz, mütləq qərq edər.**

**Bədəndə həddindən artıq olsa qan,**
**Neştərlə tökərlər onu damardan.**

**Az danış, desinlər sözündə güc var.**
**Çox sözü dinləyən çox nöqsan tutar.**

Nizami yazır ki, qiymətli söz dəryaların dibində olan qiymətli gövhərdir, bu gövhəri əldə etmək üçün gərək söz dəryasının qəvvası olasan:

**Söz deyən qəvvasdır, söz isə gövhər,**
**Bu gövhər çox çətin əmələ gələr.**

Yalan və böhtanın həm sözü, həm də söz sahibini qiymətdən saldığını söyləyən şair hamını doğru danışmağa çağırır:

**Söz canlı olanda abi-həyattək**
**Hər bir mümkün şeyi caizdir demək.**

**Var doğru yazmağa, madam ki, imkan,**
**Neçin gəlsin gərək ortaya yalan?!**

**Qiymətdən salmışdır sözü yalanlar,**
**Doğrunu danışan möhtəşəm olar.**

Nizami Gəncəvi sonrakı üç poemasında da ("Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə") yenə sözün dəyərindən və söz sahiblərinin əbədiyaşar olmasından söz açıb.

Az danışmağın gözəlliyindən "Leyli və Məcnun" poemasında bir daha söz açan Nizami sözü su ilə müqayisə edərək yazır ki, artıq içilən su insana narahatlıq, ağırlıq gətirdiyi kimi, çox danışmaq da insanı hörmətdən salır. Danışarkən sözləri inci kimi seçmək və düzmək gərəkdir. Az sözün inci qədər qiyməti olduğu halda, çox sözün kərpic qədər qiyməti olmaz.

**Sözün də su kimi lətafəti var,**
**Hər sözü az demək daha xoş olar.**

**Bir inci saflığı varsa da suda,**
**Artıq içiləndə dərd verir su da.**

**İnci tək sözlər seç, az danış, az din,**
**Qoy az sözlərinlə dünya bəzənsin.**

**Az sözün inci tək mənası solmaz,**
**Çox sözün kərpic tək qiyməti olmaz.**

Nizami "Yeddi gözəl" poemasının "Sözün tərifi" parçasında həm keçmişdə, həm indi sözdən dönə-dönə bəhs olunduğunu yazır və göstərir ki, varlığın anası sözdən gözəl övlad doğmayıb. Söz bizə təzə hekayə və rəvayətləri çatdırır. Tanrının yaratdığı hər şey aradan getsə də, söz əbədi yaşayacaq:

**Sözdür həm təzə şey, həm də köhnə şey,**
**Sözdən bəhs edilir zaman-zaman hey.**

**Varlığın anası doğmamış, inan,**
**Sözdən gözəl övlad, şahiddir cahan.**

**Ruh kimi təmiz söz oldu gövhəri**
**Hatif xəznəsinin əzəldən bəri.**

**Söz verər bakirə hekayətləri,**
**Təzə namələri, rəvayətləri.**

**Tanrı yaratmışsa hər nə, yaxşı bax,**
**Sözdən başqa bir şey yaşamayacaq.**

Son poeması "İsgəndərnamə"də Nizami cuşa gələn təbindən dürr kimi sözlər çıxmasına işarə edərək dövlətli ürəyinin yenə sözlə dostlaşmasını göstərir, özünün söz mülkünün hakimi olmasının ilahidən gəldiyini söyləyir:

**Dəniz dalğalanıb gələrsə feyzə,**
**Sədəfdən dürr alıb çıxardar üzə.**

**Yenidən dövlətim başımdan aşdı.**
**Dövlətli ürəyim sözlə dostlaşdı.**

**Varlıq pərgarının ulu rəhbəri**
**mənə söz mülkünü verəndən bəri,**

**Xeyli düşündüm ki, bu ölkəni mən**
**bəs kimə tapşırım özüm gedərkən?**

Bütün yazdıqlarımızdan belə nəticəyə gəlmək olar ki, bütün şahlar, hakimlər bir müddət sonra unudulduqları halda, söz dünyasının hökmdarı Nizami əbədi olaraq yaşayacaq. Fikrimizi Nizaminin öz dili yekunlaşdıraq:

**Söz durduqca sorağı qoy dünyaya car olsun,**
**Nizaminin şöhrəti sözlə daim var olsun!**

**Elşad Nəsirov,**
**Masallı rayonu, Qüdrət Babayev adına**
**Mahmudavar kənd ümumi orta məktəbinin**
**Azərbaycan dili və ədəbiyyat müəllimi**

# Pandemiya da dərs olmadı, virus yayırlar

## Azərbaycanda insanlar görüşəndə bir-biri ilə öpüşmək vərdişindən əl çəkmirlər



**Hər bir zaman yeni bir informasiya almaq çox maraqlı və faydalıdır. Hansısa bir ölkəyə gedərkən, üz tutduğumuz yer haqqında tam məlumatlanırıq. Hər bir xalqın özünə aid xüsusiyyətləri var. Bunlardan biri odur ki, hər bir ölkənin özünəməxsus salamlaşma qaydaları var.**

Məsələn, Fransada qeyri-rəsmi şəraitdə, hətta az tanış olan insanlar belə salamlaşarkən və ya sağollaşarkən öpüşürlər və yanaqları ilə toxunaraq havaya birdən beşə qədər sayaraq öpüş göndərirlər. İtaliya, İspaniya, Belçikada iki yanaqdan öpmək artıq adət şəklini alıb. Rusiyada insanlar rastlaşanda bir-birinə sağlamlıq, yüksək əhval-ruhiyyə arzu edirlər. Ruslar da avropalılar və amerikalılar kimi salamlaşarkən dost jesti olaraq əl verirlər. Əl sıxmanın da bir mənası var. Sağ əli uzatmaq yəni silahım yoxdur, niyyətim safdır deməkdir. Alman öpüşməyi sevməyən bir xalqdır, hətta "soyuq" bir millət kimi tanınırlar. Onlarda qaydaya görə, saat 12-yə qədər "Sabahın xeyir", 12-17-yə qədər "Günortan xeyir", sonra isə "Axşamın xeyir"deyirlər, ancaq bəzən adi salamla kifayətlənirlər. Almanlar həddindən artıq mehriban və sevgi hissi ilə dolu insanlara pis baxırlar, onları "sırtıq" adlandırırlar. Maraqlı bir salamlaşma növündən birini də Konqoda müşahidə etmək mümkündür. Bu ölkədə yaşayan insanlar salamlaşarkən əllərini bir-birinə doğru uzadıb, sonra onlara üfürməyə başlayırlar. Digər qəribə bir salamlaşma növü ilə Keniyada rastlaşmaq olar. Onlar bir-biri ilə qarşılaşıb salamlaşarkən mütləq tüpürməlidilər. Belə salamlaşmanın mənası odur ki, insanlar bir-birinə qarşı olan hörməti göstərmiş olurlar. Avropa ölkələrinin əksəriyyətində və Amerikada salamlaşarkən "işləriniz necədir" və yaxud "necəsən" deyə soruşurlar. Bu sualların cavabı "yaxşı" və ya "normal" olmalıdır, "pis" demək onlarda ədəbsizlik sayılır. Çində və Yaponiyada insanlar görüşəndə bir-birlərinin qarşısında baş əyməlidirlər, ancaq onlar əllərini bədən boyunca uzadırlar. Baş əymək bir hörmət göstəricisi kimi sayılır, bu hərəkət daha çox cavan nəslin yaşlılara qarşı olan gözəl bir jestidir. Hindistanda salamlaşma qaydasına görə hörmət əlaməti olaraq əllərini bərabərləşdirib sinəyə tuturlar. Bu da "sənə qarşı böyük bir hörmətim var" anlamına gəlir, ərəblərdə də buna oxşar bir salamlaşma növü var. Sadəcə hindistanlılardan fərqli olaraq əllərini sinələrinin üstünə qoyurlar. Qəribə və eyni zamanda, çox maraqlı bir salamlaşma növü ilə "sirli" Tibetdə rastlaşmaq olar. Bu ölkədə yaşayan insanlar görüşəndə sağ əllə papaqlarını çıxarıb, sol əllərini isə qulağın arxasına qoyub dillərini göstərirlər. Bu salamlaşma növünün qədim tarixə gedən çox maraqlı kökləri var. Qədim miflərə görə, insanlara qarşı çox zalım və qəddar kral Lanq Darmanın dili etdiyi pisliklərdən artıq qaralmışdı və insanlar bir-birlərinə dil göstərərkən nə dərəcədə xoşniyyətli və təmiz fikirli olduqlarını sübut edirlər. Cənubi Afrikada yaşayan tayfalar isə görüşəndə əl çalırlar. Əl uzadıb yanaqdan öpmək adəti isə Azərbaycandadır. Azərbaycanda uzun müddətdir ki, pandemiya olsa da insanlar bu vərdişlərindən əl çəkmir. Nə səbəbə görə insanlar bu vərdişlərindən əl çəkmir?

**Həkim-psixoloq Zeynəb Eyyubova açıqlamasında bildirib ki, əslində bu, bəzi insanların heç də xoşuna gəlmir:** "Ümumiyyətlə, insanların bir çoxu kiminsə onun yanağından öpməsini xoşlamır. Lakin qarşıdakı insan onu nəzərə almadan daha emosianal şəkildə onu öpməyə çalışır və bu da onlarda bəzən qıcıq yaradır. Cəmiyyətdə geniş yayılan bu vərdişin əsas səbəbi isə insanlar bir-birinə mehribanlığını, səmimiyyətini göstəmək istəyidir. Ancaq bu məsələnin bir də gigiyenik tərəfi var. Öpüşüb-görüşmək əslində bir çox xəstəliklərin yayılma üsuludur. Bununla insanlar qızılca, suçiçəyi infeksiyasının, dəri xəstəlikləri, herpes infeksiyası, hava-damcı yolu ilə yayıla biləcək infeksiyaları rahat bir şəkildə bir-birilə yoluxdura bilər. Yəni hava-damcı yolu ilə olan infeksiyalar dəri səthinə yapışır, dəri səthinə də yapışdığı tədqirdə həmin dəridən öpürsənsə, məlum məsələdir ki, ağız virus üçün, bakteriya üçün birbaşa qapı rolu oynayır. Düzdür, salamlaşmaq mədəniyyətdir. Ancaq bunun da özünəməxsus özəl etik qaydaları var. Məsələn, bir və ya iki dəfə gördüyümüz adamı qucaqlayıb öpmək səmimiyyətdən sayılmaz. Yaxşı olardı ki, səmimiyyətimizi isbat etmək üçün daha uyğun yollar axtaraq".

**Aynurə Pənahqızı**

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

# Açıq hərracın keçirilməsinə dair

Ləğv prosesində olan "Standard Insurance" Sığorta Şirkətinin Ləgvetmə komissiyasının sifarişi ilə ləğvetmədə olan şirkətə məxsus rekonstruksiya işlərindən sonra birləşdirilmiş ümumilikdə sahəsi 279,9 m2 olan 4 (dörd) mənzil yenidən qiymətləndirildikdən sonra Bakı şəhəri, Nəsimi rayonu, Mirzə Ağa Əliyev küçəsi , ev 251, mənzil 20 (ümumi sahəsi 56.6 m2), Bakı şəhəri, Nəsimi rayonu, Mirzə Ağa Əliyev küçəsi , ev 251, mənzil 49 (ümumi sahəsi 46.5 m2), Bakı şəhəri, Nəsimi rayonu, Mirzə Ağa Əliyev küçəsi , ev 251, mənzil 50 (ümumi sahəsi 52.7 m2) və Bakı şəhəri, Nəsimi rayonu, Şəmsi Bədəlbəyli küçəsi , ev 96, mənzil 65 (ümumi sahəsi 114.7 m2) açıq hərraca çıxarılmışdır. Hərrac açıq auksion formasında sifarişçinin müəyyənləşdirdiyi qaydalara uyğun keçirilməklə 01 oktyabr 2021-ci il tarixə, saat 11 00-a (növbəlik qaydasında) təyin edilmişdir.

Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir.

Rekonstruksiya işlərindən sonra birləşdirilmiş 4 (dörd) mənzilin ümumilikdə ilkin satış qiyməti 1.500.000 (bir milyon beş yüz min) manat məbləğində müəyyənləşdirilmişdir.

Hərracda iştirak üçün ilkin satış qiymətinin 1 %-i, yəni 15.000 (on beş min) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac sifarişçisinin aşağıda göstərilən hesablaşma hesabına ödənilməlidir.

**Adı: Ləğv prosesində olan ASC "Standard Insurance" Sığorta Şirkəti**
**Hesab №: AZ52PAHA35090AZNHC0190000581**
**VÖEN: 1300115641**
**Bank Adı: Paşa Bank ASC**
**Kodu: 505141**
**VÖEN: 1700767721**
**Müxbir hesab: AZ82NABZ01350100000000071944**
**S.W.I.F.T. PAHAAZ22**
*Hərrac addımı - əmlakın ilkin satış qiymətinin ən az 1 %-i qədər olmalıdır.*
*(Əlavə olaraq "Qeyd"ə bax).*

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır.

**1)** Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq);

**2)** Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın sifarişçisinin hesabına ödənildiyini təsdiq edən sənəd;

**3)** Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

**4)** Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**5)** Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

**6)** şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

**7)** Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beh məbləği geri qaytarılır.

**8)** Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 2 (iki) bank günü müddətində geri qaytarılır;

**9)** Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

Hərracın qalibi hərracın yekunları barədə alqı-satqı müqaviləsinin bağlandığı vaxt ödəməli olduğu pul vəsaitini "sifarişçi" nin hesablaşma hesabına köçürməlidir.

*Hərracın təşkilatçısı*
*"Əmlak Hərrac Mərkəzi" MMC*

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**
**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56**
**e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**
**Sifarişçinin əlaqə telefonları: 050-253-33-05 ; 055-213-51-35**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı, Samirə Ərəblinski

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1764



## Peyvənd vurdurmadı, koronavirusa yaxalandı

Uşağını doğduqdan 18 gün sonra qadın ölüb

**28 yaşlı gənc qadın hamiləliyinə zərər verər deyə koronavirusa qarşı peyvənd vurdurmaqdan imtina edib.**

Hamiləliyin 37-ci həftəsində isə koronavirusa yoluxub. DHA xəbər agentliyinin məlumatında bildirilir ki, 28 yaşlı Pınar Pendicak 2018-ci ildə ailə həyatı qurub. Bu, Pınarın ilk hamiləliyi olub. Koronavirusa yoluxmuş qadın nəzarət altında olsun deyə, Ədirnə Birinci Murat Xəstəxanasına aparılıb. Lakin qadının vəziyyəti hər keçən gün ağırlaşmağa doğru getdiyindən reanimasiya şöbəsinə yerləşdirilib. Lakin yenə də vəziyyətində müsbət dəyişiklik olmayıb. Konsilium aparan həkimlər körpənin əməliyyatla götürülməsinə qərar veriblər. P.Pendicak qeysəriyyə kəsiyi ilə əməliyyat olunub və körpə küvəzə yerləşdirilib. Körpəyə Ayaz adı verilib. Əməliyyatdan 18 gün sonra isə gənc qadın vəfat edib. Pınarın körpəsini dünyaya gətirdikdən sonra koronavirus səbəbindən vəfat etməsi ailəsinə böyük üzüntü yaşatdı.

**Məlahət**

## Düz 107 il 300 gündür həyatdadırlar

Ən yaşlı əkizlər Rekordlar Kitabına düşüb



**Dünyanın ən yaşlı tək "yumurta əkizləri" Ginnesin Rekordlar Kitabına düşüb.**

"Şərq" "Sabah.com"a istinadən bildirir ki, Yaponiyada yaşayan Umeno Sumiyama və Koume Kodama düz 107 il 300 gündür həyatdadırlar.

Sumiyama və Kodamanın 5 Noyabr 1913-cü ildə Shodoshima adasında dünyaya gəldikləri bildirilir. Əkiz bacılar epidemiya səbəbiylə Yaponiyada ayrı qocalar evində yaşayır. Ginnes tərəfindən hazırlanan sertifikatlar COVİD- 19 tədbirləri göründükdən sonra əkizlərə göndərilib.

Ölkə mətbuatında yer alan xəbərlərə görə, əkizlərin insanlarla çox yaxşı münasibətləri var. Sumiyamanın 4, Kodamanın isə 3 övladı var.

**Yeganə Bayramova**



# Arvadı cəza verdi

## Evin kişisi zurnasını 40 gün dağda ifa edəcək



**Məlahət Rzayeva**

**Türkiyənin Aydın bölgəsində təqaüdə çıxan 67 yaşlı Hüseyin Güler atasından miras qalan zurnaçılığa maraq göstərib. H.Gülerin zurna çalması həyat yoldaşı Nilüfər Güleri rahatsız edib və qadın ona 40 gün dağda zurna çalmaq cəzası "kəsib". Güler ailəsi Aydının Nazilli bölgəsi Kırsal İşıqlar məhəlləsində yaşayır.**

"Şərq" "Milliyyet.com"a istinadən xəbər verir ki, Hüseyin Güler təqaüdə çıxdıqdan sonra boş vaxtlarını atasından qalan zurnanı çalmaqla keçirmiş. Lakin zurnanın səsi həyat yoldaşının xoşuna gəlməyib. Qonşular da zurnanın səsindən narahatsız olub, H.Gülərə etiraz ediblər. Həyat yoldaşı H.Gülərə evdə zurna çalmağı qadağan edib. Nilüfər Güler həyat yoldaşına "40 gün dağda zurna çalacaqsan. Ancaq bu halda səni bağışlayaram" deyib kişini dağa "sürgün edib". Hüseyin Gülər də çarəsiz qalıb, gündüzlər yaxınlıqdakı dağlıq ərazidə zurnasını çalır, gecə evə qayıdır. 40 günün tamamında həyat yoldaşının onu bağışlamasını gözləyir. H.Gülər DNA müxbirinə bunları söyləyib: "Musiqiçi ailəsində böyümüşəm. Atam, böyük qardaşım zurnaçı idilər. Pandemiya dövründə evimizin eyvanına çıxıb zurna çalırdım. Zurnma çalmağı çox sevirəm. Bu alət məni duyğulandırır. Vaxt olub ki, zurna çalanda gözlərimdən yaş axıb. Təqaüdə çıxdım, evdə zurna çalmağa başladım. Amma həyat yoldaşım rahatsız oldu. Bir neçə dəfə məndən xahiş etdi ki, çalmayım. Buna rəğmən çalmaqda davam etdim. O da əsəbiləşib "get zurnanı dağlarda çal", dedi və 40 günlük cəza verdi. Cəzamın yarısı bitib. 40 günün tamamında məni bağışlayacaqmı, bilmirəm, bağışlamasa, dağlarda zurna çalmağa davam edəcəm".

## "Balan var, güclü olmalısan"

Ayan da Vüsalə Əlizadəyə ürək-dirək verib



**Müğənni Ayan Babakişiyeva qardaşının vəfatı ilə sarsılan Vüsalə Əlizadəyə dəstək verib.**

*"Şərq" xəbər verir ki, o, instaqram hesabında bu sözləri yazıb:*

"Bu gün səni, halsız və yorğun üzünü gördüm. Gözünün yaşı durmadan üzündən süzülürdü. Sanki dünyanın sonunu izləyirdin, sənə aldığın nəfəs belə dar gəlirdi. İçimi parçaladın, belə etmə, Vüsalə. Üzün ağ olsun, ailən üçün əlindən gələni edirsən. Balan var, güclü olmalısan. Sevənlərin, ailən, dostların, üçün işinin başına dönməlisən. Qardaşının da ruhu şad olar".

*Qeyd edək ki, aparıcının hərbçi qardaşı Əlihüseyn Əlizadə ötən ay avtomobil qəzasında dünyasını dəyişib.*

## "Yalandan uzaq olun, fəsadları yaxşı olmur"

Nura Surinin içi doluymuş



**"Bəzi hallarda qarşısındakı insana inanmadıqlarından, heç kəsə etibar etmədiklərindən yalan danışırlar.**

Hətta hər xırda məsələlərdə belə yalan söyləməli olurlar".

**"Şərq"in məlumatına görə, bu sözləri Feysbuk hesabında müğənni Nura Suri yazıb. Onun sözlərinə görə, kiməsə etibar etməyən, yalan danışan insan ilk növbədə başqalarına hörmət etmir:**

"Başqasına sayğı duymayan insan, deməli, özünə hörmət etmir. Özünə inamı olan, mərd adamlar yalanı sevmirlər. Bəzən insan məcburiyyətdən yalan danışır, kimisə qorumaq, kimlərisə düşündükləri, bəzən isə itirmək qorxusu ilə yalan danışırlar. Bəzən də qarşısındakı insanı sevdiyinə görə qəlbini qırmamaq üçün məcbur olurlar. Kim hansı məqsədlə yalan danışır, bəzi hallarda ayırd etmək olmur. İnsanları aldatmaq çətin deyil, çünki biz heyvanlardan fərqli olaraq sözlərlə inandırmağı bacarırıq. Heyvanlar hiss edir kim onlara yaxşı məqsədlə, kim pis niyyətlə yanaşır. İnsanların bəziləri bunu bacarır, çoxu tez-tez aldanıldığından insanlara etibarını itirir. İnsanlara etibar etmədikcə, səmimiyyət itir, münasibət qurmaq çətinləşir və tənhalıq onlara dost olur. Hər şey bir-birinə bağlıdır. Torpaqdan yaranan torpağa gedir. Yalandan uzaq olun, fəsadları yaxşı olmur".

**Samirə**



# 5 super qida

## Onlardan lazımınca istifadə etmirik

**Orqanizmi təpədən-dırnağadək yeniləyəcək qidalar dörd bir yanımızda var. Onları əldə etmək üçün böyük pullar xərcləməyə də ehtiyac yoxdur. Azacıq diqqətli olmaq və onları tanımaq, dəyərini bilmək kifayətdir. Milliyyet.com, orqanizm üçün hədsiz faydalı, orqanizmi ilin istənilən fəslində yeniləyə biləcək 5 super qidanı təqdim edir:**

**Adi qıjı**

Qıjı (su göyərtisi) enerji deposu olaraq göstərilən meyvə və tərəvəzlər arasında ən zirvədədir. 47 meyvə-tərəvəzlə bağlı aparılan araşdırmada məhz qıjının ən yüksək biofaydalılığa malik olduğu müəyyənləşib. Qıjı A.C.E vitaminləri, folat, kalsium və dəmirlə zəngindir. Mütəxəssislər kələmin faydalılıq əmsalının qıjıyla müqayisədə sıfır olduğunu bildirir.

**Cəfəri**

Cəfərinin faydaları saymaqla bitməz. A.C və K vitaminləri ilə zəngindir. Həmçinin folat, potasium, dəmir, maqnezium və kalsium qaynağıdır. Ödə qarşı, yağların yanmasına qarşı çox faydalıdır.

**Çuğundur yarpağı**

Təəssüf ki, bu tərəvəzi çoxumuz sevmirik və ona diqqət göstərmirik. Mütəxəssislər isə bu qənaətdədir ki, çuğundur yarpağından salatların hazırlanmasında mütləq istifadə edilməlidir. Çuğundur yarpağı A vitamini ilə çox zəngindir. İspanaqdan da artıq dərəcədə dəmir ehtiyatına malikdir.

Dəniz yosunu

Minerallar, vitaminlər və antioksidanla zəngindir. Hətta xaş suyuna alternativ ola bilər. Dəniz yosununda külli miqdarda yod var, bu səbəbdən də troidlərin funksiyasına müsbət təsir edir. Dəniz yosunlarının müxtəlif növləri vardır.

Sarımsaq



Sarımsaq bir çox yeməklərin hazırlanmasında istifadə olunur. Və yeməklərə çox da ləzzət qatır. Eyni zamanda sarımsaq antimikrobial, antiviral və antifungal xüsusiyyətlərinə görə müxtəlif xəstəliklər və infeksiyalarla mübarizədə əvəzolunmaz qidadır. Sarımsaq yüksək təzyiq və yüksək xolesterol kimi ürək-damar xəstəliklərinin müalicəsində istifadə edilir. Sarımsağın tərkibindəki faydalı maddələrdən tam yararlanmaq istəyirsinizsə, bişirməzdən və ya yeməzdən öncə əzin.

**Məlahət**



## "Beşiktaş" Sərdar Ortacı məhkəməyə verib

**"Beşiktaş" klubu müğənni Sərdar Ortacı məhkəməyə verib.**

"Şərq"in məlumatına görə, sənətçi konsertində "Beşiktaş" və "Adana Demirspor" oyunundan söz açarkən təhqiramiz hərəkət edib. Bununla yanaşı ifaçı klubun ünvanına xoşagəlməz söz işlədib. Bunun ardınca "Beşiktaş" rəsmi səhifəsində məlumat yayaraq müğənnini məhkəməyə verəcəklərini açıqlayıblar: "Bir tədbirdə klubumuzu təhqir ediyi üçün müğənni S.O ilə bağlı hüquq çərçivəsində işlər başladılıb". Bu açıqlamanın ardınca S.Ortac "Beşiktaş" cameasından üzr istəyib.

**Samirə**

## ABŞ "Gilqamış" dastanına aid kitabəni İraqa təhvil verib



**Dünən Vaşingtonda "Gilqamış" şumer dastanının mətni olan kitabənin İraq hakimiyyətinə təntənəli təhvil verilməsi mərasimi keçirilib.**

"Report" xəbər verir ki, məlumatı "Newsru.co" yayıb.

Bildirilib ki, 3 500 yaşı olan tarixi mədəniyyət abidəsi 1919-cü ildə "Səhrada tufan" əməliyyatı zamanı oğurlanıb. Qanunsuz olaraq ABŞ-a aparılıb və 2014-cü ildə 1,67 milyon dollara "Hobby Lobby" şirkətinə satılıb. Tarixi abidə Vaşinqtondakı İncil muzeyinə təhvil verilib.

ABŞ-ın Ədliyyə Nazirliyi 2021-ci iln iyulunda bu tarixi abidənin və 17 000 tarixi incəsənət əsərinin İraqa qaytarılması haqqında qərar qəbul edib.